AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

15 NOYABR 2018-ci il CÜMƏ AXŞAMI № 255 (6288) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Belarusun Azərbaycandakı səfirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib.*

**AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Hörmətli cənab səfir. Yaxın vaxtlarda mənim Belarusa rəsmi səfərim baş tutacaq. Biz Azərbaycanda qarşıdakı səfərə çox böyük əhəmiyyət veririk və səfər ərəfəsində mən sizi səfərin proqramını, eləcə də bizim ikitərəfli münasibətlərimizin bəzi aspektlərini müzakirə etmək üçün dəvət etmişəm. Biz görürük və bilirik ki, Belarusda da Azərbaycan Prezidentinin qarşıdakı rəsmi səfərinə böyük əhəmiyyət verilir. Lap bu yaxınlarda Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko, həmçinin öz fikirlərini bildirmək və qarşıdakı səfərlə bağlı məsələləri müzakirə etmək üçün Azərbaycanın Belarus Respublikasındakı səfirini dəvət etmişdi. Bu gün biz Sizinlə görüşürük. Siz də təcrübəli diplomat kimi yaxşı bilirsiniz ki, bu cür təcrübəyə ölkələrarası münasibətlərdə nadir rast gəlinir. Bu, bizim münasibətlərimizin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsinin göstəricisidir.

Qarşıdakı səfərin mənim Belarusa beşinci rəsmi səfərim olması, Aleksandr Qriqoryeviçin isə Azərbaycana dörd dəfə rəsmi səfərə gəlməsi faktını nəzərə alsaq, düşünürəm ki, bu, münasibətlərimizin nə qədər dinamik və uğurla inkişaf etdiyinin ən yaxşı göstəricisidir. Bizim münasibətlər bir çox sahələri əhatə edir. Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Artıq dediyim kimi, qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Fikrimcə, sənaye kooperasiyası müstəsna səmərəlilik nümayiş etdirir. Aleksandr Qriqoryeviçlə nəzərdə tutduğumuz layihələr gerçəkləşdirilib. Bu gün bu, Azərbaycanın sənaye potensialını möhkəmləndirir. Bu, həmçinin təhsil, elm, mədəniyyət sahələrində də müşahidə edilir. Yəni, ölkələrimizi tammiqyaslı münasibətlər bağlayır. Həmçinin hərbi-texniki sahədə əməkdaşlıq da münasibətlərimizin mühüm amilidir. Biz Belarusdan hərbi texnika alırıq və onun keyfiyyətindən, göstəricilərindən çox razıyıq. Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Doğrudur, Siz bilirsiniz ki, bu, Ermənistanda, belə deyim, psixoz tutmalara səbəb olur. Bu da son dərəcə təəccüblüdür. Çünki Azərbaycan təkcə Belarusdan silah almır. Azərbaycana hərbi texnikanın ən iri tədarükçüsü Rusiyadır. Həmçinin biz Türkiyədən, İsraildən, Pakistandan, Avropa ölkələrindən böyük həcmdə silah-sursat və texnika alırıq. Buna görə də təəccüblüdür ki, iradlar müstəsna olaraq Belarusa göstərilir. Mən hesab edirəm ki, bu, Ermənistanda Belarusa qarşı acizlik kompleksinin təzahürüdür. Səbəbləri də kifayət qədər sadədir. Həm Belarus, həm də Ermənistan eyni vaxtda müstəqillik əldə ediblər. Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır. İyirmi il ərzində öz xalqını istismar və qərəz edən hakimiyyətin erməni xalqı tərəfindən devrilməsi bunun parlaq təzahürüdür.

Belarus isə bir vaxtlar qoyulan sanksiyalara baxmayaraq, uğurla inkişaf edib və edir. Bu da Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun müdrik siyasətinin nəticəsidir. Belarus güclü, inkişaf edən sənaye və kənd təsərrüfatı, yüksək səviyyəli sosial müdafiəsi olan dövlətə çevrilib. Mən Sizin ölkədə dəfələrlə olmuş insan kimi bunu tamamilə obyektiv və səmimi deyirəm. Buna görə də bizə elə gəlir ki, Ermənistan tərəfindən Sizin ölkənizə qarşı deyilən əsassız iradlar öz məğzinə görə məhz bu amilə əsaslanır.

Həmçinin biz təbii ki, regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş Sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələnin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir. Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür, bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir. Eyni zamanda, bildiyiniz kimi, Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür. İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş nəmizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir. Yeni, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi. Bu adamın cinayətə görə təqib edilərək sürgün edilməsi isə beynəlxalq təcrübədə nadir hadisədir - beynəlxalq məmur bu minvalla məsuliyyətə cəlb olunur və üzv ölkələrə heç bir xəbər verilmir. Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir. Bizim münasibətlərimizə gəlincə, onlar sarsılmazdır, möhkəm bünövrəyə malikdir, dostluq, qarşılıqlı hörmət, dəstək münasibətlərinə əsaslanır və gələcəyə yönəlib. Əminəm ki, mənim dost ölkəyə qarşıdakı səfərim münasibətlərimizi daha da möhkəmləndirəcək. Səfərin gündəliyi olduqca genişdir, xeyli sənəd imzalanacaq. Əminəm ki, həmin sənədlər bundan əvvəl reallaşdırılan digər razılaşmalar kimi gerçəkləşəcək.

* * *

**Belarusun Azərbaycandakı səfiri Gennadi AXRAMOVİÇ dedi:**

- Zati-aliləri, çox hörmətli cənab Prezident.

Bizim səbirsizliklə gözlədiyimiz Belarusa səfəriniz ərəfəsində Sizinlə görüşmək imkanına görə minnətdarlığımı bildirirəm. Sizin ikitərəfli münasibətlərimizə verdiyiniz yüksək qiymətə görə təşəkkür edirəm. Mən xatırlayıram ki, əvvəlki - 2016-cı ildəki səfəriniz zamanı Siz Aleksandr Qriqoryeviçlə birlikdə bizim qarşımızda yüksək vəzifə qoydunuz. Mən şadam ki, biz nə qədər çətin olsa da, Sizin qarşımıza qoyduğunuz vəzifələri tam həcmdə yerinə yetirdik.

Bu gün ölkələrimiz arasında əmtəə dövriyyəsi üç dəfədən çox artıb. Azərbaycanın Belarusa ixracı artımlı olan ötən illə müqayisədə 50 faizi ötüb. Mən Sizinlə tamamilə razıyam, yəqin ki, bizim münasibətlərimizdə inkişaf etməyən sahəni tapmaq çətindir. Bu, sənaye və kənd təsərrüfatından tutmuş yüksək texnologiyalara qədər sahələri əhatə edir. Humanitar əməkdaşlığın da inkişaf səviyyəsi çox yüksəkdir. Ölkələrimizdə turizmin qarşılıqlı artımı, idman və mədəni mübadilələr müşahidə edilir. Həm sizin, həm də bizim artistlər mütəmadi olaraq mötəbər teatr və konsert studiyalarında qarşılıqlı çıxış edirlər.

Biz Sizin Belarusa səfərinizə çox ciddi hazırlaşırıq. Hazırlıq çox diqqətlə aparılır, hökumətin nəzarətindədir. Mən düşünürəm ki, artıq imzalanmağa hazır olan razılaşmalar və layihələr əməkdaşlığımıza daha yeni dinamika verəcək. Belarus və Azərbaycan qarşılıqlı əməkdaşlıq üçün açıqdırlar. Mən məmnuniyyətlə qeyd edə bilərəm ki, həm Siz, cənab Prezident, həm də Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko həmişə həm ikitərəfli, həm də çoxtərəfli formatdakı əməkdaşlığımızın konstruktiv təmələ əsaslanmasını və bir-birinə və hər hansı digər ölkələrə, bloklara qarşı yönəlməməsini əldə rəhbər tutursunuz. Həm Siz, həm də Belarus Prezidenti siyasətinizdə həmişə çalışırsınız ki, digər ölkələrlə münasibətlərin inkişafında beynəlxalq hüququn əsas norma və prinsiplərinə ciddi riayət olunsun, bütün münaqişələr konstruktiv ruhda, tədricən və sülh yolu ilə həll olunsun. Mən qeyd etməyə şadam ki, bu planda müəyyən irəliləyiş var. Biz həmişə, o cümlədən beynəlxalq formatlarda da azərbaycanlı dostlarımızın dəstəyinə bel bağlaya bilərik. Eynilə, biz də həmişə müxtəlif beynəlxalq meydanlarda - BMT, ATƏT, Avropa Şurası xətti ilə Azərbaycanı dəstəkləyirik. Biz bunu həmişə hiss edirik. Buna görə də Sizi Belarus Respublikasında görməyimizə çox şad olacağıq. Düşünürəm ki, səfər, xüsusilə də bizim özünəməxsus yubileyimiz - diplomatik münasibətlərin qurulmasının 25 illiyi dövründə, ikitərəfli münasibətlərimizin getdikcə inkişafına yeni dinamika, daha güclü impuls verəcək. Çox sağ olun.

AZƏRTAC



## Fələstin Dövlətinin Prezidenti Zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident,

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Fələstin arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq daha da genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 noyabr 2018-ci il.**

*"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri" qəzetin 3-cü səhifəsində dərc olunur.*

## Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 noyabr 2018-ci il.**

*"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri" qəzetin 3-cü səhifəsində dərc olunur.*

## Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

Musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilsin *(əlavə olunur).*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 noyabr 2018-ci il.**

*"Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni qəzetin 3-cü səhifəsindən başlayaraq dərc olunur.*

## Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il avqustun 12-də Aktau şəhərində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanmış və Beşinci Xəzər Zirvə Toplantısının Kommünikesi qəbul edilmişdir. Bu sənədlərə əsasən, Xəzəryanı dövlətlərin dövlət başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın səmərəli yerinə yetirilməsi məqsədilə Xəzəryanı dövlətlərin səlahiyyətli nümayəndələrindən ibarət müntəzəm bəştərəfli məsləhətləşmə mexanizminin yaradılması barədə qərar qəbul etmişlər. Həmin qərara uyğun olaraq, Xəzəryanı dövlətlərin xarici işlər nazirləri Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrup yaratmışlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfov Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi təyin edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfovun bu Sərəncamın 1-ci hissəsində göstərilən Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi təyin edildiyi barədə Xəzəryanı dövlətlərə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Birgə Bəyanatının təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 28; 2002, N 8, maddə 495; 2005, N 12, maddə 1111; 2007, N 12, maddə 1241; 2008, N 5, maddə 363; 2010, N 2, maddə 80; 2017, N 8, maddə 1518; 2018, N 2, maddə 170) 3.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

“3.4. həmin Qanunun 7.1-ci maddəsində və 25.10-cu maddəsinin ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 858; 2013, N 2, maddə 109, N 3, maddə 254, N 4, maddə 377; 2014, N 2, maddə 117, N 5, maddə 486, N 9, maddələr 1027, 1044, 1048; 2015, N 6, maddə 708, N 8, maddə 917, N 10, maddə 1122; 2016, N 2 (II kitab), maddə 251, N 5, maddə 852, N 8, maddə 1384, N 9, maddə 1464; 2017, N 2, maddə 174, N 4, maddə 564, N 5, maddə 809, N 8, maddələr 1521, 1531; 2018, N 3, maddə 437, N 6, maddə 1242, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 oktyabr tarixli 313 nömrəli Fərmanı) 5.17.4 - 5.17.8-ci yarımbəndlər ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Çili Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Çili Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında 2018-ci il sentyabrın 13-də Santyaqo şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çili Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 7, maddə 405; 2001, N 11, maddələr 689, 690, N 12, maddə 736; 2002, N 5, maddə 242; 2003, N 1, maddələr 11, 16, N 6, maddə 256; 2004, N 1, maddə 10, N 4, maddə 202, N 5, maddə 314, N 6, maddə 397; 2005, N 2, maddə 62; 2006, N 2, maddə 67, N 11, maddə 923, N 12, maddə 1005; 2007, N 11, maddələr 1053, 1082; 2008, N 5, maddə 354; 2009, N 6, maddə 410; 2010, N 3, maddə 173, N 4, maddələr 275, 276; 2011, N 2, maddə 71, N 12, maddə 1074; 2012, N 6, maddə 523; 2014, N 8, maddə 956, N 11, maddə 1376; 2015, N 2, maddələr 77, 88, N 5, maddə 485; 2017, N 1, maddə 3, N 5, maddə 707; 2018, N 1, maddə 28) 4-cü maddəsinin 2-ci hissəsinin dördüncü abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Həmin qaydaların tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1308-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1308-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin İ hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 12, maddə 690; 2001, N 12, maddə 736; 2002, N 5, maddə 242; 2004, N 4, maddə 202; 2005, N 2, maddə 62; 2007, N 11, maddə 1082; 2010, N 3, maddə 173; 2011, N 12, maddə 1075; 2015, N 2, maddə 86; 2016, N 11, maddə 1779; 2017, N 5, maddə 708, N 7, maddə 1270; 2018, N 1, maddə 21) 8-ci maddəsinin 2-ci bəndinin üçüncü abzasında “Bələdiyyələrin ərazisində” sözləri “Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 7 (I kitab), maddə 1459) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 4.10-cu bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

“Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.”;

*1.2.* 4.23-cü bənddə “4.9.5-ci, 4.9.6-cı, 4.9.8-ci, 4.9.9-cu” sözləri “4.9.5 - 4.9.9-cu” sözləri ilə əvəz edilsin;

*1.3.* 4.24-cü bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

“İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

## “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1309-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1309-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 noyabr 2018-ci il.**

*Azərbaycan Respublikasının*
*2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Dövlət Gerbinin TƏSVİRİ

**Maddə 1. Ümumi təsvir**

1.1. Azərbaycan Respublikasının Dövlət Gerbi iki palıd budağından və iki sünbüldən ibarət qövsvarı çələngin üzərində yerləşən şərq qalxanı şəklindədir.

1.2. Qalxanın üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri (8 ədəd) və palıd qozaları (5 ədəd) qızılı rəngdədir.

**Maddə 2. Rəngli, rəngsiz və sxematik təsvir**

2.1. Azərbaycan Respublikasının Dövlət Gerbi, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli, rəngsiz və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Gerbinin sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı alovun qırmızı rənginin "Panton" rənglər kataloqunun Pantone Red 032C rəng koduna, palıd budaqlarının yaşıl rənginin Pantone 7729C rəng koduna, sünbüllərin sarı rənginin Pantone 7548C rəng koduna, qalxanın və ulduzun sağanaqlarının, qalxanın düymələrinin və palıd qozalarının qızılı rənginin Pantone 111C rəng koduna uyğunluğu təmin edilir.

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

**Azərbaycan Respublikası Dövlət Gerbinin rəngli təsviri**



"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

**Azərbaycan Respublikası Dövlət Gerbinin rəngsiz təsviri**



"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

**Azərbaycan Respublikası Dövlət Gerbinin sxematik təsviri**



| Azərbaycan Respublikası Dövlət Gerbinin ölçülərinin nisbəti | | |
|---|---|---|
| D: Qalxanın dairəsinin diametri | 1 | D |
| A: Gerbin ümumi uzunluğu | 1,190 | D |
| B: Gerbin ümumi eni | 1,078 | D |
| C: Palıd-sünbül çələnginin eni | 0,562 | D |
| $D_1$: Ulduzun xarici çevrəsinin diametri | 0,928 | D |
| $D_2$: Ulduzun daxili çevrəsinin diametri | 0,453 | D |
| $D_3$:Qalxanın düymələrinin diametri | 0,038 | D |
| $E_1$: Bayrağın mavi rəngini əks etdirən zolağın eni | 0,072 | D |
| $E_2$: Bayrağın qırmızı rəngini əks etdirən zolağın eni | 0,072 | D |
| $E_3$: Bayrağın yaşıl rəngini əks etdirən zolağın eni | 0,072 | D |
| F: Alovun uzunluğu | 0,365 | D |
| G: Alovun eni | 0,230 | D |
| H: Səkkizguşəli ulduzun kontur xəttinin qalınlığı | 0,017 | D |
| J: Qalxanın xarici kontur xəttinin qalınlığı | 0,036 | D |

*Azərbaycan Respublikasının*
*2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Dövlət Bayrağının TƏSVİRİ

**Maddə 1. Ümumi təsvir**

1.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı eni bərabər olan üç üfüqi zolaqdan ibarət düzbucaqlı şəklindədir. Yuxarı zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Düzbucaqlının eninin uzunluğuna nisbəti 1:2-dir.

1.2. Qırmızı zolağın ortasında aypara və səkkizguşəli ulduz təsviri vardır. Aypara və ulduz ağ rəngdədir. Ayparanın ucları ondan sağda yerləşən ulduza istiqamətlənmişdir.

**Maddə 2. Rəngli və sxematik təsvir**

2.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Bayrağının sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Pantone 306C rəng koduna, qırmızı rənginin Pantone Red 032C rəng koduna, yaşıl rənginin Pantone 362C rəng koduna uyğunluğu təmin edilir.

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə
ƏLAVƏ

**Azərbaycan Respublikası Dövlət Bayrağının rəngli təsviri**



"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə
ƏLAVƏ

**Azərbaycan Respublikası Dövlət Bayrağının sxematik təsviri**



| Azərbaycan Respublikası Dövlət Bayrağının ölçülərinin nisbəti | | |
|---|---|---|
| A: Bayrağın eni | 1 | A |
| B: Bayrağın uzunluğu | 2 | A |
| $A_1$: Bayrağın mavi zolağının eni | 1/3 | A |
| $A_2$: Bayrağın qırmızı zolağının eni | 1/3 | A |
| $A_3$: Bayrağın yaşıl zolağının eni | 1/3 | A |
| C: Bayrağın sol kənarından ayparanın daxili çevrəsinin mərkəzinədək olan məsafə | 0,5 | B |
| D: Ayparanın xarici çevrəsinin diametri | 0,286 | A |
| $D_1$: Ayparanın daxili çevrəsinin diametri | 0,220 | A |
| $D_2$: Ulduzun xarici çevrəsinin diametri | 0,166 | A |
| $D_3$: Ulduzun daxili çevrəsinin diametri | 0,078 | A |
| F: Ayparanın daxili və xarici çevrələrinin mərkəzləri arasındakı məsafə | 0,035 | A |
| G: Ulduz çevrəsinin mərkəzi ilə ayparanın xarici çevrəsinin mərkəzi arasındakı məsafə | 0,140 | A |

*Azərbaycan Respublikasının*
*2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Dövlət Himninin mətni

## AZƏRBAYCAN MARŞI

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Dövlət Himninin musiqisi (partiturası)

musiqi: Üzeyir Hacıbəyli
söz: Əhməd Cavad




(davamı 4-cü səhifədə)

# Azərbaycanın və Slovakiyanın Baş nazirləri birgə işçi nahar ediblər

**Noyabrın 14-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini birgə işçi nahar ediblər.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Slovakiya arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini Heydər Əliyev Mərkəzi ilə tanış olub

**Azərbaycanda səfərdə olan Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 14-də Heydər Əliyev Mərkəzində olub.**




AZƏRTAC xəbər verir ki, qonağa Mərkəzin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi və tədqiqi, eyni zamanda, ölkəmizin tarixi və mədəniyyətinin tanıdılması istiqamətində fəaliyyət göstərir.

Mərkəzdə yaradılan Heydər Əliyev Muzeyi ilə tanış olan ali qonağa məlumat verilib ki, Muzey təşkil olunarkən Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunmasına xüsusi diqqət yetirilib. Muzey həm də Azərbaycan tarixinin öyrənilməsinə böyük imkanlar yaradır. Bu baxımdan interaktiv formada təqdim edilən eksponatlar, müxtəlif videomateriallar xüsusi əhəmiyyət kəsb edir.

Slovakiya Respublikasının Baş naziri Muzeyin ayrı-ayrı bölmələri, eləcə də 1969-cu ildən 2003-cü ilədək ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxıb.

Qonaqlar, həmçinin Mərkəzin "Azərbaycan inciləri" sərgisi ilə tanış olublar.

Qeyd edilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətlərinə, çoxəsrlik tarixinə, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Sərgidə qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri yer alıb, mis məmulatlar xüsusi maraq doğurur. Azərbaycanın qədim musiqi alətləri orijinal formada - səsli təqdim olunur.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq qonaqda xoş təəssürat doğurub.

Peter Pelleqrini xatirə kitabına ürək sözlərini yazıb.

AZƏRTAC

*Endryu Parsons:*

# Azərbaycanda idmana və paralimpiya hərəkatına olan münasibət təqdirəlayiqdir

**Noyabrın 14-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endryu Parsons ilə görüşüb.**



Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sədr qonağı səmimi salamlayaraq bildirib ki, ölkəmizdə idmanın inkişafına böyük diqqət göstərilir. Bu, dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkədə hər bir sahədə olduğu kimi, idmanda da böyük inkişaf var.

Bu gün biz Avropa, Dünya çempionatlarında, Olimpiya və Paralimpiya oyunlarında yüksək nəticələr əldə edirik. Bölgələrimizdə regional Olimpiya mərkəzləri fəaliyyət göstərir. 2008-ci ildə paralimpiyaçılar üçün Xüsusi Olimpiya İdman Mərkəzi yaradılıb, Gəncə şəhərində regional dayaq mərkəzi fəaliyyətə başlayıb. Digər infrastruktur layihələr də həyata keçirilməkdədir. Azərbaycan idmançıları Paralimpiya Oyunlarında fəal iştirak edir, yüksək nəticələr göstərirlər. Bizim Olimpiya komandamız Rioda çox yaxşı nəticələr göstərib, 18 medal qazanıb. Olimpiya və Paralimpiya oyunlarında Azərbaycan idmançıları, ümumilikdə, 29 medal əldə ediblər. Bu, bir daha göstərir ki, Azərbaycan güclü idman ölkəsidir.

Sədr qeyd edib ki, ölkəmizdə keçirilən mühüm beynəlxalq idman yarışları, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları ölkəmizin bu sahədə əməkdaşlıq siyasətinin göstəricisidir. Ölkəmizdə bu il və gələcəkdə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulub. Azərbaycanda fiziki cəhətdən qüsurlu insanların idmana cəlb edilməsinə və cəmiyyətə inteqrasiyasına xüsusi diqqət yetirilir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endryu Parsons ölkəmizə səfərindən və burada gördüklərindən məmnun qaldığını söyləyib.

O, Azərbaycanda idmana və paralimpiya hərəkatına olan münasibəti yüksək dəyərləndirib. Qeyd edilib ki, Azərbaycanda idmançılar üçün yaradılan şərait, fiziki cəhətdən qüsurlu insanların cəmiyyətdə və idmanda özlərini təsdiqləməsi üçün yaradılan imkanlar çox əhəmiyyətlidir. Qonaq ölkəmizdə müxtəlif səviyyəli beynəlxalq yarışların keçirilməsini təqdir edib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin gənclər və idman komitəsinin sədri Ülvi Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

AZƏRTAC

# Slovakiyalı qonaqlar Qobustan Qoruğundan xoş təəssüratla ayrılıblar

**Slovakiya nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində noyabrın 14-də Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlar qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxdılar.

Məlumat verildi ki, Qobustan Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə daş dövründən son orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaradıblar. Qobustan qayaüstü rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan Qoruğu 2007-ci ildə UNESCO-nun Maddi-Mədəni İrs Siyahısına daxil edilib.



Qədim insan məskəni ilə tanışlıqdan məmnun qalan qonaqlar ərazidə aparılmış tədqiqat işləri ilə və tarixi eksponatlarla maraqlanıblar.

Qonaqlar Qobustan Milli Tarix-Bədii Qoruğundan xoş təəssüratla ayrılıblar.

AZƏRTAC

*Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Dövlət Himninin musiqisi (partiturası)

**musiqi: Üzeyir Hacıbəyli**
**söz: Əhməd Cavad**

*(əvvəli 3-cü səhifədə)*



## Azərbaycan Respublikası Nazirlər Kabinetinin

# QƏRARI

**№ 478**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli, "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında" 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli, "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında" 2007-ci il 25 iyun tarixli 102 nömrəli, "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 5 fevral tarixli 28 nömrəli, "Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram"ın təsdiq edilməsi haqqında" 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli, "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 18 mart tarixli 50 nömrəli və "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQ nömrəli Qanunun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.2-ci və 1.4-cü bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 10, maddə 866; 2006, N 3, maddə 303, N 5, maddələr 463, 468, N 8, maddə 731, N 9, maddə 822, N 11, maddə 994; 2007, N 1, maddə 50, N 10, maddə 1021, N 12, maddələr 1343, 1352; 2008, N 2, maddə 130, N 4, maddə 308, N 10, maddə 936; 2009, N 1, maddələr 22, 32, N 2, maddələr 144, 150, N 9, maddələr 736, 753; 2010, N 4, maddə 369, N 11, maddə 1048; 2011, N 1, maddə 66, N 4, maddə 365; 2012, N 9, maddə 934; 2013, N 8, maddə 1000, N 10, maddə 1202; 2014, N 1, maddələr 59, 69, N 2, maddə 201, N 5, maddə 557, N 6, maddələr 745, 747, N 9, maddə 1130; 2015, N 2, maddə 227, N 3, maddələr 328, 337, N 6, maddələr 774, 781, N 7, maddə 890, N 11, maddə 1412; 2016, N 3, maddə 595, N 4, maddələr 806, 831, N 5, maddələr 941, 955, N 8, maddə 1450, N 9, maddə 1561, N 12, maddələr 2220, 2241; 2017, N 4, maddə 643, N 6, maddə 1244, N 9, maddələr 1722, 1745, N 10, maddə 1896; 2018, N 1, maddə 122, N 3, maddə 630, N 4, maddələr 785, 831, N 6, maddə 1356, N 7 (II kitab), maddə 1628, N 8, maddə 1799; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 oktyabr tarixli 427 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Büdcə xərclərinin funksional təsnifatı"na Əlavənin 4.5.1-ci paraqrafında "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 9, maddə 869; 2007, N 1, maddə 45, N 3, maddə 312, N 10, maddə 1021; 2008, N 2, maddə 116; 2009, N 6, maddə 491, N 10, maddə 846, N 12, maddə 1061; 2010, N 3, maddə 264, N 4, maddə 359, N 7, maddə 702, N 12, maddə 1122; 2014, N 3, maddə 321, N 10, maddə 1322; 2015, N 4, maddə 474; 2016, N 2 (II kitab), maddə 366, N 3, maddə 610, N 5, maddə 951, N 8, maddə 1431, N 9, maddə 1555, N 11, maddə 1955; 2017, N 1, maddə 131, N 3, maddə 510, N 8, maddə 1617, N 12 (II kitab), maddə 2504; 2018, N 6, maddə 1377, N 7 (II kitab), maddə 1630, N 8, maddə 1809) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 15-ci hissəsində "tibb təhsili üzrə əsas təhsil" sözləri "əsas (baza ali) tibb təhsili" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 6, maddə 706; 2017, N 2, maddə 300) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.10.4.1-ci yarımbənd üzrə:

3.1.1. doqquzuncu abzasın birinci cümləsində "baza təhsili" və "baza təhsil" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

3.1.2. iyirmi səkkizinci abzasın birinci cümləsindən hər iki halda "baza" sözü çıxarılsın;

3.2. 2.14.3-cü yarımbəndin ikinci hissəsinin dördüncü abzasına "kadrlarının" sözündən sonra "(dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər istisna olmaqla)" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 2, maddə 109, N 5, maddə 434, N 7, maddə 672; 2009, N 10, maddə 846; 2010, N 4, maddə 355, N 8, maddə 769; 2014, N 3, maddə 316, N 5, maddə 556; 2016, N 7, maddə 1343, N 11, maddə 1963, N 12, maddə 2239) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on beşinci və on altıncı abzasları müvafiq olaraq on altıncı və on yeddinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda on beşinci abzas əlavə edilsin:

"Şagird-məzun" dövlət elektron məlumat sistemi (Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi).".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 9, maddə 870; 2014, N 2, maddə 201; 2016, N 5, maddə 955) ilə təsdiq edilmiş "Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram"ın 5-ci hissəsinin ikinci sətrinin "Tədbirlərin adı" sütunundan "tələbə qəbulu planlarında" sözləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 3, maddə 261; 2011, N 9, maddə 858; 2013, N 3, maddə 335, N 10, maddə 1229, N 11, maddə 1464; 2016, N 12, maddə 2239; 2017, N 4, maddə 641) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3.1-ci yarımbənddə və 5.12-ci bənddə "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

6.2. 2.1-ci bənddə "qəbul planı" sözləri "müvafiq ixtisaslar üzrə qəbulu" sözləri ilə əvəz edilsin.

**7.** "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 4, maddə 372; 2011, N 3, maddə 235; 2013, N 5, maddə 567; 2014, N 5, maddə 571; 2016, N 6, maddə 1203, N 11, maddə 1967; 2017, N 6, maddə 1222) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-1-ci hissədə "Baza ali" sözləri "Əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "Baza ali tibb təhsili və rezidentura təhsili haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası" üzrə:

7.2.1. adında, 2-ci hissəsinin adında, 2.1-ci, 2.3-cü bəndlərində, 3-cü hissəsinin adında, 3.1-ci, 3.2-ci bəndlərində, 3.6-cı bəndinin dördüncü cümləsində və 4-cü hissəsinin adında "Baza ali" sözləri "Əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.2. 1.1-ci bənddə, 2.1.1-ci yarımbənddə və 4.1-ci bənddə "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.3. 2.2-ci bənddə "Baza ali" sözləri "Əsas (baza ali)" sözləri ilə, "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.4. 2.3.1-ci yarımbənd üzrə:

7.2.4.1. üçüncü və beşinci cümlələrdə "BAZA ALİ" sözləri "ƏSAS (BAZA ALİ)" sözləri ilə əvəz edilsin;

7.2.4.2. dördüncü və yeddinci cümlələrdə "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.5. 2.3.2-ci yarımbənd üzrə:

7.2.5.1. birinci cümlədə "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.5.2. üçüncü cümlədə "BAZA ALİ" sözləri "ƏSAS (BAZA ALİ)" sözləri ilə əvəz edilsin;

7.2.6. 2.3.3-cü yarımbənddə "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə, "BAZA ALİ" sözləri "ƏSAS (BAZA ALİ)" sözləri ilə əvəz edilsin;

7.2.7. Qaydaya 1 və 3 nömrəli əlavələr üzrə:

7.2.7.1. yuxarı sağ küncündə "Baza ali" sözləri "Əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.7.2. mətndə "BAZA ALİ" sözləri "ƏSAS (BAZA ALİ)" sözləri ilə, "baza ali" sözləri "əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.8. Qaydaya 2 nömrəli əlavə üzrə:

7.2.8.1. yuxarı sağ küncündə "Baza ali" sözləri "Əsas (baza ali)" sözləri ilə əvəz edilsin;

7.2.8.2. adında "BAZA ALİ" sözləri "ƏSAS (BAZA ALİ)" sözləri ilə əvəz edilsin;

7.3. həmin Qərarla təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"nın 2.1-ci bəndinin birinci cümləsində "müxtəlif" sözü "ümumi orta və tam orta" sözləri ilə əvəz edilsin.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin

# QƏRARI

**№ 479**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli, "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli, "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2011-ci il 13 yanvar tarixli 5 nömrəli, "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 14 yanvar tarixli 7 nömrəli, "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 21 yanvar tarixli 9 nömrəli, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 15 iyul tarixli 118 nömrəli və "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə" 2012-ci il 24 yanvar tarixli 12 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.2-ci və 1.4-cü bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 9, maddə 829) ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.1-ci yarımbəndin ikinci cümləsində hər iki halda "baza təhsili" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

1.2. 5.1.1-ci yarımbəndin birinci cümləsində "baza peşə-ixtisas təhsili" və "baza təhsil" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

1.3. 5.1.6-cı yarımbənddə "baza təhsil" və hər iki halda "baza təhsili" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

1.4. 5.2.4-cü yarımbənddə "baza" sözü "təhsil" sözü ilə əvəz edilsin;

1.5. 6.1.2-ci, 6.1.3-cü və 6.1.4-cü yarımbəndlərdə "baza təhsili" sözləri "təhsil" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 9, maddə 833; 2012, N 6, maddə 624, N 10, maddə 1005; 2016, N 10, maddə 1713; 2017, N 2, maddə 314) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Təhsil müəssisəsinin akkreditasiyası təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun, hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddinin müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır.";

2.2. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Təhsil müəssisələrinin akkreditasiyasına görə dövlət rüsumunun məbləği "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.";

2.3. 2.1-ci bənddən "(əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinin akkreditasiyası 3 ildə)" sözləri çıxarılsın;

2.4. 2.4-cü bəndin ikinci abzasına "lisenziyanın" sözündən sonra "(dövlət məktəbəqədər və ümumi təhsil müəssisələri istisna olmaqla) sözləri əlavə edilsin;

2.5. 2.4-cü bəndin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"- dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.";

2.6. 5.3-cü bənd üzrə:

2.6.1. birinci cümləyə "statusunu" sözündən sonra "və hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddini" sözləri əlavə edilsin;

2.6.2. üçüncü cümləyə "təhsil proqramları" sözlərindən sonra ", hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddi göstərilməklə" sözləri əlavə edilsin.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 1, maddə 58; 2012, N 1, maddə 34, N 10, maddə 1007; 2014, N 10, maddə 1329; 2015, N 12, maddə 1562; 2016, N 7, maddə 1351, N 10, maddə 1717; 2017, N 4, maddə 612, N 12 (II kitab), maddələr 2519, 2535; 2018, N 5, maddə 1144) ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.5-2-ci bənddən ", fəaliyyətinə lisenziya verilmiş" sözləri çıxarılsın;

3.2. 1.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"1.6. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət təhsil müəssisələrində ümumi təhsil pilləsinin dövlət standartlarını əhatə edən tam orta təhsil pulsuzdur. Dövlət təhsil müəssisələri dövlət standartlarından əlavə tədris edilən beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramlarını ödənişli əsaslarla təşkil etmək hüququna malikdirlər.";

3.3. 1.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.11. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə uyğun olaraq tədris digər dillərdə də aparıla bilər.";

3.4. 2.5-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Valideynlərin və ya digər qanuni nümayəndələrin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar da məktəbə qəbul edilirlər.";

3.5. 2.7-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xüsusi proqram əsasında təhsilverən təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisəsinin yerləşdiyi ərazidə yaşayan təhsilalanlar həmin təhsil müəssisəsinə ilk növbədə qəbul olunurlar.";

3.6. 4.15-ci bəndə birinci halda "attestasiyasının" sözündən sonra "(dövlət ümumtəhsil məktəbində - sertifikatlaşdırılmasının)" sözləri əlavə edilsin;

3.7. aşağıdakı məzmunda 4.20-ci bənd əlavə edilsin:

"4.20. Ümumtəhsil məktəbində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil olunur.";

3.8. 6.3-cü bəndə və 8.2.9-cu yarımbəndə "attestasiyadan" sözündən sonra "(dövlət ümumtəhsil məktəbində - sertifikatlaşdırmadan)" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 1, maddə 60; 2012, N 5, maddə 484, N 6, maddə 625, N 10, maddə 1008; 2013, N 10, maddə 1230; 2015, N 12, maddə 1561; 2016, N 10, maddə 1701, N 12, maddə 2239; 2017, N 4, maddə 640, N 12 (II kitab), maddə 2536; 2018, N 5, maddə 1143) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.16-cı bənd üzrə:

4.1.1. birinci abzas ləğv edilsin;

4.1.2. ikinci abzasın birinci cümləsinə "müəssisəsinin akkreditasiyası" sözlərindən sonra "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və" sözləri əlavə edilsin;

4.2. 2.2-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsilli, tam orta təhsilli şəxslərin və bakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir.";

4.3. 2.3-cü bənddə "tələbə qəbulu planı" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulu" sözləri ilə əvəz edilsin;

4.4. 3.1-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə uyğun olaraq tədris digər dillərdə də aparıla bilər.";

4.5. aşağıdakı məzmunda 4.10-cu bənd əlavə edilsin:

"4.10. Orta ixtisas təhsili müəssisələrində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil edilir.";

4.6. 6.1-ci bəndin dördüncü abzasında "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 1, maddə 62; 2012, N 5, maddə 485, N 10, maddə 1006; 2013, N 10, maddə 1231; 2015, N 12, maddə 1560; 2016, N 4, maddə 821, N 10, maddə 1702, N 12, maddə 2239; 2017, N 4, maddələr 640, 668, N 8, maddə 1606, N 12 (II kitab), maddə 2537; 2018, N 5, maddə 1142) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.4-cü bəndin birinci cümləsinə "müəssisəsi" sözündən sonra "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri və "ali" sözündən sonra ", orta ixtisas və əlavə" sözləri əlavə edilsin;

5.2. 1.9-cu bənd üzrə:

5.2.1. yeddinci abzasa "hazırlığını," sözündən sonra "orta ixtisas və" sözləri əlavə edilsin;

5.2.2. səkkizinci abzasa "ali" sözündən sonra ", orta ixtisas" sözləri əlavə edilsin;

5.2.3. doqquzuncu abzasa "hazırlığını" sözündən sonra ", orta ixtisas" sözləri əlavə edilsin;

5.2.4. onuncu abzasa "üzrə" sözündən sonra "subbakalavr və" sözləri əlavə edilsin;

5.3. 1.17-ci bənd üzrə:

5.3.1. birinci abzas ləğv edilsin;

5.3.2. ikinci abzasın birinci cümləsinə "müəssisəsinin akkreditasiyası" sözlərindən sonra "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və" sözləri əlavə edilsin;

5.4. 1.26-cı bəndin on yeddinci abzasına birinci halda "təhsil" sözündən sonra "və peşə" sözləri əlavə edilsin;

5.5. 1.27-ci bənd üzrə:

5.5.1. ikinci abzasda "tibb təhsili istisna olmaqla" sözləri "əsas (baza ali) tibb təhsili" sözləri ilə əvəz edilsin;

5.5.2. üçüncü abzasda "tibb təhsili istisna olmaqla" sözləri "rezidentura" sözü ilə əvəz edilsin;

5.5.3. dördüncü abzasa "doktorantura" sözündən sonra "(adyunktura)" sözü əlavə edilsin;

5.5.4. aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Ali təhsil müəssisələrinin müvafiq struktur bölmələrində təsisçinin razılığı ilə orta ixtisas təhsili həyata keçirilə bilər. Ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

5.6. 1.30-cu bənd üzrə:

5.6.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Ali tibb təhsili təhsil proqramlarına və dövlət ali tibb təhsili standartlarına uyğun olaraq, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində aparılır, məzunlara müvafiq olaraq həkim və həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir.";

5.6.2. ikinci abzas ləğv edilsin;

5.6.3. üçüncü abzasda "Tibb təhsili üzrə əsas təhsil" sözləri "Əsas (baza ali) tibb təhsili" sözləri ilə əvəz edilsin;

5.7. 2.1-ci bənd üzrə:

5.7.1. birinci abzasa "əsasında," sözündən sonra "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.5-ci və 26.5-3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla," sözləri əlavə edilsin;

5.7.2. ikinci abzas üçüncü abzas hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin öz arzusu ilə ali təhsil müəssisəsinin orta ixtisas təhsili pilləsinə köçürülməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir.";

5.8. 2.2-ci bənddə "Ali təhsil müəssisələrinin" sözləri "Ali təhsil müəssisələrində orta ixtisas təhsili pilləsinə," sözləri ilə əvəz edilsin;

5.9. 2.3-cü bənddə "tələbə qəbulu planı" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulu" sözləri ilə əvəz edilsin;

5.10. 3.1-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə uyğun olaraq tədris digər dillərdə də aparıla bilər.";

5.11. aşağıdakı məzmunda 5.9-cu bənd əlavə edilsin:

"5.9. Ali təhsil müəssisələrində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil olunur.";

5.12. 7.1-ci bəndin dördüncü abzasında "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 7, maddə 745, N 10, maddə 969, N 12, maddələr 1241, 1245; 2012, N 3, maddə 257, N 4, maddə 399, N 6, maddələr 633, 634, N 12, maddə 1346; 2013, N 6, maddə 775, N 9, maddə 1130; 2014, N 1, maddə 72, N 2, maddə 214, N 6, maddə 751, N 7, maddə 907, N 9, maddə 1120; 2015, N 3, maddə 336, N 6, maddə 807, N 8, maddə 966, N 10, maddələr 1226, 1229, N 12, maddə 1571; 2016, N 1, maddə 176, N 2 (II kitab), maddə 373, N 3, maddə 622, N 5, maddə 957, N 6, maddə 1209, N 10, maddə 1723, N 11, maddə 1919; 2017, N 2, maddələr 285, 302, 319, N 6, maddələr 1223, 1226) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Ümumi təhsil müəssisələri (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr)" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. adına birinci halda "orta" sözündən əvvəl "ümumi" sözü, "ümumtəhsil internat məktəbləri" sözlərindən sonra ", inteqrasiya təlimli internat tipli təhsil müəssisələri" sözləri əlavə edilsin;

6.2. 1-ci hissəyə birinci halda "orta" sözündən əvvəl "ümumi" sözü əlavə edilsin.

**7.** "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 yanvar tarixli 12 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 1, maddə 35; 2016, N 12, maddə 2239) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adına və preambulasına "müəssisələrində" sözündən sonra "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri əlavə edilsin;

7.2. 1-ci hissəyə "müəssisələrində" sözündən sonra "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri və hər iki halda "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.3. 2-ci hissəyə "müəssisələrində" sözündən sonra "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri və hər üç halda ismin müvafiq hallarında "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.4. 3-cü hissəyə "Dövlət İmtahan Mərkəzi" sözlərindən sonra ", Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.5. 3.1-ci bənddə "bakalavriat və magistratura səviyyələrinə" sözləri "bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrinə və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri ilə əvəz edilsin;

7.6. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dövlət ali təhsil müəssisəsi ilə ödənişli əsaslarla təhsil alan "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşı arasında Nümunəvi Fərdi Müqavilə" üzrə:

7.6.1. adına, 2.1-ci bəndinə hər üç halda, 2.2-ci, 2.3-cü bəndlərinə, 2.3.1-ci, 2.4.2-ci, 2.4.3-cü yarımbəndlərinə, 5.4-cü bəndinə və 9.3-cü bəndinə hər iki halda ismin müvafiq hallarında "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.6.2. preambulada birinci və beşinci hallarda ismin müvafiq hallarında "müəssisələri" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin, "bakalavriat və magistratura səviyyələrində" sözləri "bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura) səviyyələrində və 2015/2016-cı tədris ilindən başlayaraq magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri ilə əvəz edilsin, üçüncü, dördüncü və altıncı hallarda "müəssisələrində" sözündən sonra "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri və ismin müvafiq hallarında "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.6.3. 1.1-ci və 3.1-ci bəndlərə hər iki halda ismin müvafiq hallarında "müəssisələri" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.6.4. 3.2-ci bəndə "müəssisəsini" sözündən sonra "və ya təşkilatı" sözləri və "müəssisəsi" sözündən sonra "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.6.5. 10-cu hissəyə hər iki halda ismin müvafiq hallarında "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və ya Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.7. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə dövlət ali təhsil müəssisəsi arasında "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan və ödənişli əsaslarla dövlət ali təhsil müəssisəsində təhsil alan şəxslərə göstərilən təhsil xidmətlərinin dəyərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi barədə Nümunəvi Fərdi Müqavilə" üzrə:

7.7.1. adına hər iki halda, 2.1.1-ci, 2.1.2-ci, 2.1.3-cü yarımbəndlərinə, 2.2-ci bəndinə, 3.1-ci bəndinə hər iki halda, 3.2-ci, 4.1-ci, 4.2-ci, 10.2-ci və 10.3-cü bəndlərinə ismin müvafiq hallarında "müəssisəsi" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.7.2. preambulada birinci və beşinci hallarda ismin müvafiq hallarında "müəssisələri" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin, "bakalavriat və magistratura səviyyələrində" sözləri "bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura) səviyyələrində və 2015/2016-cı tədris ilindən başlayaraq magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri ilə əvəz edilsin, üçüncü, dördüncü və altıncı hallarda ismin müvafiq hallarında "müəssisələri" sözündən sonra ismin müvafiq hallarında "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi" sözləri, "müəssisəsi" sözündən sonra "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.7.3. 1.1-ci bəndə hər iki halda ismin müvafiq hallarında "müəssisələri" sözündən sonra ismin müvafiq hallarında "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin;

7.7.4. 6.4-cü bəndə "müəssisəsində" sözündən sonra "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri və "müəssisələrinə" sözündən sonra "və ya magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri əlavə edilsin;

7.7.5. 11-ci hissəyə "müəssisəsi" sözündən sonra "və ya Azərbaycan Milli Elmlər Akademiyası" sözləri əlavə edilsin.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri.**

# Slovakiyanın Baş naziri Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri başa çatıb



**Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrininin Azərbaycan Respublikasına rəsmi səfəri noyabrın 14-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Slovakiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiyanın Baş naziri Peter Pelleqrinini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər yola salıblar.

AZƏRTAC

# Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Qırğızıstanda Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXI iclasında iştirak edib

**Noyabrın 14-də Qırğızıstan Respublikasının Bişkek şəhərində Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının (Türkon) XXI iclası keçirilib.**

İclasın işində Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Mədət Quliyev tədbirdə "Beynəlxalq terrorçu təşkilatlardakı bəzi tendensiyalara və Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşdirilməsi cəhdlərinə dair" mövzusunda çıxış edib. General-polkovnik Mədət Quliyev qeyd edib ki, dünyanın bir sıra regionlarında, xüsusilə Yaxın Şərqdə hərbi-siyasi vəziyyət gərgin olaraq qalmaqda davam edir. Suriya və İraq ərazisində hərbi əməliyyatların aktiv fazasının başa çatmasına baxmayaraq, terrorçu və dini-ekstremist təşkilatlar tərəfindən həmin regionun hüdudlarından kənarda özəklərini yaratmaq cəhdləri qeydə alınır.



DTX-nin rəisi diqqətə çatdırıb ki, Azərbaycanda dini radikalların və ekstremistlərin hüquqazidd əməlləri özünü daha qabarıq şəkildə bu ilin iyul ayında göstərib. Respublikanın ikinci böyük şəhəri olan Gəncədə ictimai-siyasi sabitliyin pozulmasına cəhd olunub. Azərbaycanın hüquq-mühafizə orqanlarının birgə əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində ağır cinayətlər törədən 60-dan çox şəxs həbs olunub, silahlı müqavimət göstərən 5 nəfər məhv edilib.

General-polkovnik Mədət Quliyev qlobal təhlükəsizliyə və sabitliyə qarşı yönəlmiş ümumi təhdidlərin, ilk növbədə, terrorçuluğun və dini ekstremizmin yayılmasının qarşısının alınması istiqamətində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və kollektiv tədbirlərin görülməsinin zəruri olduğunu deyib.

Bu baxımdan türkdilli dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları arasında inkişaf edən tərəfdaşlıq münasibətlərinin aktual və vacib olduğunu qeyd edən Xidmət rəisi, ölkələrimizin təhlükəsizliyinin səmərəli təmin olunması yönümündə təcrübə və məlumat mübadiləsinin daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Konfransın XXI iclasının əməkdaşlıq sahələrində birgə fəaliyyətə öz müsbət təsirini göstərəcəyinə, yeni reallıqlar nəzərə alınmaqla işgüzar münasibətlərin yüksələcəyinə ümidvar olduğunu qeyd edib.

General-polkovnik Mədət Quliyevin iclas çərçivəsində tərəfdaş xüsusi xidmət orqanlarının nümayəndə heyətləri ilə keçirdiyi ikitərəfli görüşlərdə təhlükəsizlik sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

AZƏRTAC

# Ali Məhkəmədə Avropa Şurasının nümayəndə heyəti ilə görüş keçirilib

**Ölkəmizdə səfərdə olan Avropa Şurası İnsan hüquqları və qanunun aliliyi üzrə baş departamentinin insan hüquqları məsələləri üzrə direktoru Kristof Poirelin başçılıq etdiyi nümayəndə heyəti noyabrın 14-də Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüşüb.**



Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ramiz Rzayev Azərbaycanın məhkəmə sistemi və Ali Məhkəmənin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verib. Ali Məhkəmənin sədri İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən söhbət açaraq, beynəlxalq hüquqi aktlara, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin president hüququna istinad olunduğunu bildirib. Qeyd olunub ki, hər həftə Ali Məhkəmədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qəbul etdiyi qərarlarla bağlı seminarlar keçirilir. Məhkəmə sisteminə hakim vəzifəsinə seçim prosedurları Avropa standartlarına uyğunlaşdırılıb və bu, təqdir olunur. Azərbaycanda elektron məhkəmə sisteminin yaradılması ilə bağlı işlər davam etdirilir.

Ramiz Rzayev Avropa Şurasının üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyini vurğulayaraq, bu əməkdaşlığın ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Sonra nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılıb.

AZƏRTAC

## *Dmitri Savelyev:*
# Feyk-xəbərlər yaradılması texnologiyaları getdikcə daha da təkmilləşir

**VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC tərəfindən təşkil olunmuş "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiya Forumun ən mühüm sessiyalarından biri idi. Şübhəsiz ki, Forumun əsas hadisəsi Azərbaycan Prezidenti İlham Əliyevin "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda nitq söylədiyi açılış mərasimi oldu.**

Bu fikirləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev deyib. O, işçi sessiyanın yüksək səviyyədə təşkilinə görə AZƏRTAC-ın



İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkür edib.

Bakı Beynəlxalq Humanitar Forumunun bütün dünya üçün əlamətdar hadisə olduğunu vurğulayan Dmitri Savelyev deyib: "Biz görürük ki, bu Forumun nüfuzu ildən-ilə daha da artır, dünyanın hər yerindən görkəmli insanlar bu tədbirdə iştirak etmək üçün Bakıya gəlirlər. Mən "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda sessiyada iştirak etdim. Sessiya riyakar kütləvi informasiya vasitələrinin və hətta bəzi dövlətlərin istifadə etdikləri ikili standartlara həsr olunmuşdu. Biz informasiyanın verilməsində KİV nümayəndələrinin mənəvi məsuliyyətinin artırılmasının, informasiyanın sözün həqiqi mənasında dürüst və doğru olmasının zəruriliyindən danışdıq. Hesab edirik ki, informasiya günün hər hansı siyasi konyunkturuna uyğunlaşdırılmamalı, xüsusən də siyasi və dövlətlərarası mübarizə silahı, başqa dövlətlərin alçaldılması vasitəsi olmamalıdır. Təəssüf ki, bu cür vasitələrdən dünya praktikasında yetərincə tez-tez istifadə olunur. Feyk-xəbər adlandırılan xəbərlərin yaradılması texnologiyaları getdikcə daha da təkmilləşir".

Dmitri Savelyevin fikrincə, cəmiyyətin yanlış məlumatlandırılması planetimizdə sülhə və sabitliyə təhlükə yaradır. O deyib: "Bütün dünyanın rəqəmsal dövrə qədəm qoyduğunu, feyk-xəbərlər verilməsi vasitələrinin təkmilləşdiyini və getdikcə daha geniş auditoriyanı əhatə etdiyini nəzərə alsaq, deyə bilərik ki, bu, kütləvi qırğın silahına çevrilir. Biz nüvə, kimyəvi və bioloji silahları kütləvi qırğın silahları hesab edirik, lakin yanlış məlumatlandırma öz dağıdıcılığına görə onlardan heç də az təhlükəli deyil. Sessiya çərçivəsində bu cür dağıdıcı mexanizmlərə qarşı mübarizə məsələlərini müzakirə etdik. Buna görə də bu işçi sessiya Forumun ən mühüm sessiyalarından biri oldu".

AZƏRTAC

# Qırğızıstan Prezidenti Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXI iclasının iştirakçılarını qəbul edib

Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov Bişkekdə keçirilən Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının (Türkon) XXI iclasının iştirakçılarını qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev iştirak edib.

Qırğızıstan Prezidenti görüşdə Konfransın region üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Sooronbay Jeenbekov bildirib ki, biz bir-birimizə çox yaxın, qardaş xalqlarıq. Belə görüşlər dövlətlərimiz arasında əməkdaşlığı möhkəmləndirir və inkişaf etdirir. Dövlət başçısı bu tədbirlərin təcrübə mübadiləsinin aparılması, milli, regional və qlobal problemlərin müzakirəsi baxımından önəmini diqqətə çatdırıb.

Prezident Sooronbay Jeenbekov qeyd edib ki, region dövlətlərinin



başçıları xüsusi xidmət orqanlarının qardaş xalqlarımızın təhlükəsizliyini təmin etməyə yönəlmiş sıx və səmərəli qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verirlər.

Qırğızıstan Dövlət Təhlükəsizlik Xidmətinin rəisi İsdris Kadırkulov Konfransın fəaliyyəti haqqında məlumat verib.

AZƏRTAC

# Qırğızıstan Prezidenti MDB Sərhəd Qoşunları Komandanları Şurasının 80-ci iclasının iştirakçılarını qəbul edib

**Noyabrın 14-də Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov MDB Sərhəd Qoşunları Komandanları Şurasının (SQKŞ) Bişkekdə keçirilən 80-ci yubiley iclasının iştirakçılarını qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev görüşdə iştirak edib.

Prezident Sooronbay Jeenbekov bildirib ki, MDB-nin üzvü olan ölkələrin dövlət başçıları müasir risklərin təhlükəli olduğunu anlayır və Birlik ölkələrinin sərhədlərinin etibarlı qorunmasına çalışırlar. Dövlət başçısı MDB ölkələri arasında əlaqələrin genişləndirilməsinin, sərhəd



xidmətlərinin daha da yaxından əməkdaşlıq etməsinin vacibliyini diqqətə çatdırıb.

Beynəlxalq terrorizmə, ekstremizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin aparılmasının əhəmiyyətini vurğulayan Qırğızıstan Prezidenti bu baxımdan Şuranın fəaliyyətini xüsusi qeyd edib.

MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri, Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişov iclasda müzakirə olunan məsələlər barədə Prezident Sooronbay Jeenbekova məlumat verib.

Görüşdə dövlət başçısına MDB Sərhəd Qoşunları Komandanları Şurasının xatirə medalı təqdim olunub.

AZƏRTAC

# Fransada Azərbaycanın Dostları Assosiasiyasının üzvləri Dövlət Komitəsində olublar

**Noyabrın 14-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ölkəmizə səfərə gəlmiş Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel, assosiasiyanın baş katibi, Paris-Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva və təşkilatın digər üzvləri ilə görüşüb. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.**

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış humanitar fəlakətin fəsadlarının aradan qaldırılması, öz tarixi torpaqlarından didərgin düşmüş 1 milyondan çox qaçqın və məcburi köçkünün sosial problemlərinin həll edilməsi üçün dövlətimizin gördüyü tədbirlər haqqında ətraflı söhbət açılıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin sosial siyasətində bu məsələ prioritet istiqamətlərdəndir. Hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərlə təmin edilməsi Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi nəzarətindədir və bu məqsədlə yaşayış kompleksləri inşa edilir.

Eyni zamanda, qaçqınların və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasının vacibliyi vurğulanıb, bununla bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, digər beynəlxalq təşkilatların qəbul etdiyi qərarların indiyədək yerinə yetirilməməsinin ciddi narahatlıq doğurduğu bildirilib.

Azərbaycan dövlətinin işğaldan azad ediləcək ərazilərdə bərpa-quruculuq işlərinə hazır olduğunu diqqətə çatdıran komitə sədri 2016-cı ilin aprelində ordumuzun apardığı əks-hücum əməliyyatı nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin dinc həyata qovuşduğunu, yerli sakinlərin geri qayıtmasına hər cür şərait yaradıldığını və onların kənddə inşa edilmiş evlərdə yerləşdirildiyini, məşğulluq məsələlərinin həlli üçün tədbirlər görüldüyünü xatırladıb.

Vurğulanıb ki, Ermənistanın ərazi iddiası və işğalçılıq siyasəti barədə beynəlxalq ictimaiyyətin davamlı olaraq məlumatlandırılması və Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi vacibdir. Bu istiqamətdə Fransada Azərbaycanın Dostları Assosiasiyasının üzvlərinin də fəallığı mühüm əhəmiyyət kəsb edir.

Bildirilib ki, ATƏT-in Minsk qrupunun həmsədri və Avropa İttifaqının əsas ölkələrindən biri kimi Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində ədalətli həllində fəal iştirakına böyük ümid bəslənilir. Assosiasiyanın prezidenti Jan-Fransua Mansel Bakıda və Cocuq Mərcanlıda məcburi köçkünlərlə görüşəcəklərini və onların taleyi barədə həqiqətləri Fransada ictimailəşdirəcəklərini bildirib. O qeyd edib ki, dünya ictimaiyyətinin münaqişə qurbanlarının taleyinə biganə qalması yolverilməzdir.

Görüşdən sonra nümayəndə heyəti Yasamal rayonunda məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yataqxanada və Abşeron rayonunun Masazır qəsəbəsi ərazisindəki yaşayış kompleksində vəziyyətlə tanış olub.

AZƏRTAC

# Slovakiya nümayəndə heyəti Səngəçal terminalında olub

**Slovakiya Respublikasının nümayəndə heyəti Azərbaycan Respublikasına səfəri çərçivəsində noyabrın 14-də Səngəçal terminalında olub.**



AZƏRTAC xəbər verir ki, terminalla tanışlıq Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzindən başlanıb.

SOCAR-ın yataqların işlənilməsi üzrə vitse-prezidenti Yaşar Lətifov və "BP Azerbaijan" şirkətinin hökumətlə işlər üzrə baş müşaviri Qivami Rəhimli qonaqlara bildiriblər ki, Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən bu Mərkəz ölkəmizin dünya neft və qaz sənayesindəki rolunu geniş təbliğ edir. Mərkəz 2005-ci ildə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Gürcüstan və Qazaxıstandan olan yüksək səviyyəli rəsmi qonaqların iştirakı ilə Prezident İlham Əliyev tərəfindən açılıb. Mərkəzin istifadəyə verilməsi Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə eyni vaxta təsadüf edib. Burada qonaqlar rəmzi nişan kimi öz əl izlərini qoyub və bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib. Mərkəzin əsas məqsədlərindən biri Azərbaycanın neft və qaz sənayesinin 150 ildən çox olan tarixini nümayiş etdirməkdir.

Qonaqlara respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verilib. Bildirilib ki, neft və qaz sənayesi Azərbaycan üçün yalnız iqtisadi dəyər daşımır, o, eyni zamanda, milli qürur mənbəyidir. Dünyada ilk dəfə mexaniki üsulla neft quyusu 1847-ci ildə Bibiheybət ərazisində qazılıb. XIX əsrə qədər dünyada hasil edilən neftin yarısı ölkəmizin payına düşüb. XIX əsrin ikinci yarısında xarici ölkələrin iş adamları Azərbaycanda biznes fəaliyyətinə başlayıblar. Bunlara bütün dünyada tanınan Rotşildlər və Nobel qardaşlarını misal göstərmək olar. Dünyada məşhur olan Nobel mükafatı həm də Alfred Nobelin Bakıdakı neft yataqları üzrə səhmlərinin satışından əldə olunmuş vəsaitlərin toplanması hesabına yaradılıb. İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında neftin 75 faizini hasil edən Azərbaycan ordunu yanacaqla təchiz edərək Qələbənin əldə olunmasında əhəmiyyətli rol oynayıb.

Ötən əsrin 70-80-ci illəri isə Xəzər dənizinin dərin sulu sahələrindəki yataqların işlənilməsi və neft-kimya sənayesinin inkişafı ilə səciyyəvidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə nəhəng "Azəri-Çıraq-Günəşli" yatağının işlənilməsi məqsədilə "Əsrin müqaviləsi" kimi tanınan hasilatın pay bölgüsü haqqında müqavilə imzalanıb. Bu müqavilə ölkənin sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

Sonra qonaqlar avtobusla Səngəçal terminalının ərazisini gəziblər. Onlara terminaldakı texnoloji proseslər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır. "Azəri-Çıraq-Günəşli" yatağından ötürülən neft və "Şahdəniz"dən nəql edilən qaz terminala daxil olur, əsasən Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri ilə ixrac edilir. Dünyanın ən böyük və səmərəli neft və qaz terminallarından sayılan Səngəçal terminalının sahəsi 550 hektardan çoxdur. Terminalda gündə 1,2 milyon barreldən çox xam neft və 40 milyon kubmetrdən artıq qaz emal edilir. Onun xam neft saxlama həcmi 3,2 milyon barrel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub. Dənizdəki qurğulardan terminala daxil olan boru kəmərləri müxtəlif marşrutlara istiqamətlənməklə Azərbaycanın yüksək keyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir.

Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistan neftini də qəbul edir. "İlkin Neft Layihəsi" və "Səngəçal Terminalının Genişləndirilməsi Proqramı" nəticəsində terminalda hər birinin həcmi 25 min 500 kubmetr olan və ildə 6 milyon tondan çox xam nefti emal etmək, saxlamaq və ixrac etmək iqtidarında olan 4 çən yerləşir. Terminaldakı idarəetmə mərkəzi Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən ixrac boru kəmərlərinin fəaliyyətini hərtərəfli nəzarətdə saxlaya, problemləri aşkara çıxara bilir.

Vurğulanıb ki, Səngəçal terminalı öz neft və qaz ixrac sistemləri ilə birlikdə Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovşağa çevirib.

Qonaqlara terminaldakı texnoloji proseslər, o cümlədən "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihələri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin ilk nefti qəbul edən birinci nasos stansiyası barədə də ətraflı məlumat verilib.

AZƏRTAC

# AzMİU ilə TİKA Azərbaycan nümayəndəliyi arasında əlaqələr genişlənir



Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Azərbaycan nümayəndəliyi arasında qurulan işgüzar əlaqələr biznes-partnyor və universitet tərəfdaşlığının ən bariz nümunəsidir. İqtisadi, texniki, sosial, təhsil və səhiyyə sahələri üzrə fəaliyyətlərdə Azərbaycanın dövlət və qeyri-dövlət strukturları ilə əməkdaşlıq qurulmasına xüsusi əhəmiyyət verən bu qurum artıq bir neçə ildir ki, AzMİU ilə də səmərəli işgüzar münasibətlər qurub. Qurum universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi işinə diqqət və qayğıyla yanaşaraq onun müasir avadanlıqlarla təmin edilməsinə dəstək göstərir. Xatırladaq ki, bu məqsədlə bu ilin yanvarında TİKA Memarlıq fakültəsinin müəllim və tələbələrinin istifadəsinə 3D printer hədiyyə edib.

Yeni tədris ilində isə TİKA AzMİU-nun Memarlıq fakültəsinin korpusunu bütövlükdə ən müasir texniki avadanlıqlarla təchiz edib. TİKA tərəfindən universitetin Memarlıq fakültəsinin kompüter laboratoriyasına 53 ədəd kompüter hədiyyə olunub. Bununla yanaşı, TİKA fakültəni 14 proyektor, 6 smart board, 1 ədəd 3 D skayner və digər texniki avadanlıqlarla da təmin edib.

Keçirilən görüşdə Türkiyə Cümhuriyyətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, səfirliyin təhsil müşaviri Mahmud Ağırman, TİKA-nın Azərbaycan nümayəndəliyinin rəhbəri Teoman Tiryaki və agentliyin digər nümayəndələri AzMİU-nun Memarlıq fakültəsinə baş çəkib, studiya və laboratoriyalarla tanış olublar. Binada yerləşən kompüter laboratoriyası və çap mərkəzi ilə tanışlıqdan sonra onlar Memarlıq fakültəsinin kollektivi ilə görüşüblər.

Tədbiri AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova açaraq qonaqları salamlayıb. Universitetin maddi-texniki bazasının formalaşmasında TİKA-nın böyük rolunu xüsusi vurğulayan rektor buna görə qurumun rəhbərliyinə dərin təşəkkürünü bildirib: "AzMİU ilə TİKA arasında qurulan işgüzar əlaqələr sayəsində adıçəkilən qurum Memarlıq fakültəsinin maddi-texniki bazasının qurulması, auditoriya və studiyaların ən müasir avadanlıqlarla təchiz olunması, yeni texnologiyaların tətbiq olunması işində bizə böyük dəstək verib".

Görüşdə Türkiyənin səfiri Erkan Özoral, TİKA-nın Azərbaycan nümayəndəliyinin rəhbəri Teoman Tiryaki, Memarlıq fakültəsinin dekanı Zahidə Məmmədova və türkiyəli tələbələr çıxış ediblər.

Görüşün sonunda AzMİU-nun rektoru TİKA Azərbaycan nümayəndəliyinin rəhbərinə yağlı boya ilə işlənmiş rəsm əsəri hədiyyə edib.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**




# Azərbaycan geologiya elminin flaqmanı

**Azərbaycan Milli Elmlər Akademiyasının böyük elmi müəssisələrindən olan Geologiya və Geofizika İnstitutu yaranmasının 80 ilini qeyd edir. Bu illər ərzində institutun kollektivi geologiya elminin inkişafına, Azərbaycan ərazisinin geoloji quruluşunun öyrənilməsinə, neftli-qazlı əyalətlərin elmi əsaslandırılmasına və kəşfinə, neft-qaz ehtiyatının regional qiymətləndirilməsinə, respublikamızın mineral-xammal bazasının yaradılmasına, Yer qatlarında baş verən fiziki və təhlükəli geoloji proseslərin öyrənilməsinə mühüm töhfələr vermişdir.**

Geologiya və Geofizika İnstitutunun yaranma tarixi 1923-cü ildə Azərbaycanın öyrənilməsi və tədqiqi cəmiyyətinin yaradılması ilə başlamışdır. 1932-ci ildə bu cəmiyyətin bazasına əsaslanaraq Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi məqsədilə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan bölməsi (AzFAN) yaradılmışdır. 1935-ci ildə AzFAN-ın bazasında Geologiya da daxil olmaqla bir sıra elmi istiqamətləri əhatə edən sektorlardan ibarət SSRİ EA-nın Azərbaycan filialı təsis edilmişdir. 1938-ci ildə Azərbaycanın görkəmli alimləri: Ş.Ə.Əzizbəyov, M.Ə.Qaşqay, Ə.A.Yaqubovun təklifi ilə (SSRİ EA-nın Rəyasət Heyətinin dəstəyi ilə) Geologiya sektoru bazasında müstəqil elmi-tədqiqat idarəsi Geologiya İnstitutu yaradılmışdır. İnstitutun yaranması və formalaşması Azərbaycanda neft və qaz sənayesinin sürətli inkişafı ilə eyni vaxta təsadüf etmişdir. Qeyd edək ki, institutun adı 2014-cü ildə dəyişdirilərək Geologiya və Geofizika İnstitutu adlandırılmışdır.

Geologiya və Geofizika İnstitutunun formalaşma tarixi rəsmi olaraq 1938-ci ildən başlayır. 80 illik yubiley ərəfəsində institutun tarixində baş verən mühüm hadisələrin, eləcə də Azərbaycanın tanınmış geoloq alimlərinin adlarının xüsusilə vurğulanması bu elmi müəssisənin inkişaf yolunun izlənilməsi baxımından önəmlidir. Respublikamızda geologiya elminin inkişafında və yüksəkixtisaslı kadrların hazırlanmasında bir sıra məşhur alimlərin, o cümlədən akademiklər Ş.Ə.Əzizbəyov, M.M.Əliyev, Ə.Ə.Əlizadə, Q.Ə.Əlizadə, Ə.C.Sultanov, H.Ə.Əhmədov, Ş.F.Mehdiyev, M.Ə.Qaşqay, A.V.Məmmədov, A.A.Əlizadə, Ş.N.Məmmədov, S.Q.Səmədov, Q.M.Sultanov, H.X.Əfəndiyev, elmlər doktorları R.M.Hacıyev, T.A.İsmayılzadə və b. alimlərin böyük əməyi olmuşdur.

Geologiya və Geofizika İnstitutunun yarandığı müddətdən görkəmli alimlərimiz - professor M.T.Ağabəyov (1938-1943), akademik Q.Ə.Əlizadə (1943-1945), akademik Ə.C.Sultanov (1945-1949), müxbir üzvü A.H.Əliyev (1949-1951), g.m.-e.n. A.S.Bayramov (1951-1954), akademik Ş.F.Mehdiyev (1954-1958), akademik Ə.C.Sultanov (1958-1970), prof. Ə.N.Əlixanov (1970-1976) instituta rəhbərlik etmişlər. 1976-cı ildən bu günə kimi AMEA Geologiya və Geofizika İnstitutunun direktoru akademik Akif Əlizadədir.

İnstitut yarandığı ilk gündən alimlərin fəaliyyəti respublikanın xalq təsərrüfatının dinamik inkişafı ilə əlaqədar fundamental və tətbiqi geoloji-geofiziki problemlərin həllinə yönəldilmişdir. Bu dövrdə Azərbaycan ərazisinin ilk ümumiləşdirilmiş geoloji, faydalı qazıntı və mineral sular xəritələri hazırlanmışdır. 1940-cı ildə gənc alimlər M.G.Ağabəyov, Ş.A.Əzizbəyov, M.A.Qaşqay, Ə.C.Sultanov, C.M.Süleymanov və başqaları qeyri-filiz faydalı qazıntılarının tədqiqi ilə məşğul olmağa başlamış və ilk dəfə kaolin yatağı aşkar etmişlər.

Bu illərdə neft geologiyasının əsas problemi sayılan neft yataqlarının geotermiyası, neftli lay süxurlarının və lay sularının kollektor xüsusiyyətlərinin öyrənilməsi sahəsində önəmli tədqiqatlar aparılmışdır. Eyni zamanda regional geologiya, stratiqrafiya və paleontologiya və litologiya üzrə tədqiqatlar aparılmağa başlanmışdır.

İkinci Dünya müharibəsi illərində də institut kollektivi faşizm üzərindəki qələbəyə öz töhfəsini vermişdir. Müxtəlif cəbhələrdə aparılan döyüşlərdə institutun əməkdaşları F.S.Əhmədbəyli, B.G.Vəkilov, T.A.Həsənov, Ə.S.Heydərov, Ş.F.Mehdiyev, M.M.Məmmədyarov, A.M.Seyidov, R.M.Hacıyev, V.G.Zaseyev və başqaları iştirak etmişlər. Müharibə dövründə institut öz elmi tədqiqatını müharibə dövrünün tələblərinə uyğun olaraq planlaşdırmışdır. Bu dövr üçün təxirəsalınmaz problem neft-qaz yataqlarının kəşfi və istismarı olmuşdur ki, bu da Böyük Vətən müharibəsinin qalibiyyətlə başa çatdırılmasının əsas şərtlərindən idi. İnstitutun qabaqcıl alimlərindən M.V.Abramoviç, M.G.Ağabəyov, Ş.Ə.Əzizbəyov, Ə.Ə.Əlizadə, Q.Ə.Əlizadə, V.A.Qorin, M.S.Qaşqay, Ə.Ə.Yaqubov və başqaları bilik və bacarıqlarını müdafiə əhəmiyyətli məsələlərin müvəffəqiyyətli həllinə həsr etmişlər. Bu alimlərdən bir çoxu fədakar əməklərinə görə orden və medallarla təltif olunmuş, akademiklər Ə.Ə.Əlizadə və Ə.Ə.Yaqubov isə SSRİ Dövlət Mükafatına layiq görülmüşlər.

Müharibədən sonrakı dövrdə institutun elmi istiqaməti geologiya və geofizikanın daha geniş problemlərini əhatə etmişdir. Bu dövrdə dərinlik quruluşunun və palçıq vulkanizminin öyrənilməsi, neft və qaz geologiyası, filiz və qeyri-filiz yataqlarının axtarışı, geofiziki sahələrin tədqiqi məsələləri əsas istiqamətlər idi.

Azərbaycanda 1927-ci ildən başlayan paleontologiya-stratiqrafiya tədqiqatları institutda 1950-ci ildə akademik M.M.Əliyevin rəhbərliyi ilə paleontologiya və stratiqrafiya şöbəsi açıldıqdan sonra sürətlə inkişaf etmişdir. Bu şöbənin tərkibində sonralar mezozoy, kaynozoy, paleozoy, mikrofauna və biogeokimya laboratoriyaları təşkil edilmişdir ki, bu laboratoriyalara görkəmli alimlər (M.M.Əliyev, Q.Ə.Əlizadə, Ə.Y.Xəlilov, C.M.Xəlilov, A.A.Əlizadə) rəhbərlik etmişlər. M.M.Əliyev mezozoy üzrə paleontoloq və stratiqrafların elmi məktəbinin banisidir. Bu məktəb SSRİ-də Yura və Tabaşir stratiqrafiyası üzrə "Bakı Məktəbi" kimi məşhurlaşmışdı.

Paleontologiya və stratiqrafiya şöbəsinin əməkdaşları tərəfindən devon - dördüncü dövr çöküntülərinin dəqiq zonal stratiqrafik sxeması, paleofaunaların arxistratiqrafiyası öyrənilmişdir.

Bu məktəbin nümayəndələrindən biri olan akademik Akif Əlizadənin tabaşirin stratiqrafiya və paleontologiyası məsələlərinə aid tədqiqatları xüsusi maraq kəsb edir. Alimin çoxillik tədqiqatları əsasında Azərbaycanın tabaşir mollusk faunasının (belemnitlər) kompleksləri barədə təlimin başlıca müddəaları irəli sürülmüş, bu qədim canlıların təsnifatı və filogeniyası verilmiş, paleobiocoğrafi rayonlaşdırma prinsipləri işlənib hazırlanmış, ekologiya və paleopatologiyaya dair məsələlər işıqlandırılmışdır. Heç də təsadüfi deyil ki, elm dünyası tabaşir belemnitlərinin öyrənilməsində Azərbaycan aliminin elmi xidmətlərini nəzərə alaraq onun adı ilə belemnitlərin yeni ailəsi - "Akifibelidlər" adlandırılmışdır.

Geologiya və Geofizika İnstitutunun yaradılması və inkişafı Azərbaycanın neft və qaz sənayesinin inkişafının geniş vüsət alması ilə üst-üstə düşdüyündən və institutun fəaliyyətinin prioritet istiqamətləri xalq təsərrüfatının bu aparıcı sahəsinin inkişaf xüsusiyyətləri ilə müəyyən edilirdi. Belə bir şəraitdə institutda elm aləmində tanınmış Azərbaycanın neftçi-geoloqlar məktəbi formalaşmışdır.

Görkəmli alimlərin böyük töhfələr verdiyi neft-qaz geologiyası və geokimyası sahəsi bu gün də institutun prioritet elmi istiqaməti olub; F.H.Dadaşov, İ.S.Quliyev, A.A.Əliyev, Ə.Ə.Feyzullayev və başqaları tərəfindən uğurla davam etdirilir. Azərbaycanda neft və qaz ehtiyatları proqnazlaşdırılmış, kəşfiyyat işlərinin aparılması üçün perspektiv stratiqrafik komplekslər və rayonlar müəyyənləşdirilmiş və kəşfiyyat işləri üçün təklif edilmişdir. Bu illərdə institutun alimləri tərəfindən "Azərbaycan SSR-in neft-qaz yataqları və perspektiv struktur xəritəsi" hazırlanaraq nəşr edilmişdir. Bu xəritə Azərbaycan ərazisinin və Xəzərin akvatoriyasının yeni geoloji neft-qaz rayonlaşdırılması nöqteyi-nəzərdən böyük əhəmiyyət daşıyırdı. İnstitutun dünya əhəmiyyətli Neft Daşları, Azəri, Çıraq, Günəşli, Şahdəniz, Bahar, Xərə-Zirə və s. kimi neft-qaz yataqlarının kəşf edilməsində və işlənilməsində rolu böyükdür. Geologiya və Geofizika İnstitutu alimlərinin təcrübəsi və Azərbaycan ərazisində neft-qaz geologiyası sahəsində apardıqları elmi tədqiqatların nəticələrinin neft və qaz axtarış strategiyasının təyin edilməsində müstəsna dərəcədə faydalı olmuşdur.

Cənubi Xəzər hövzəsinin timsalında sürətlə çökən hövzələrin karbohidrogen sistemlərinin institutda aparılan tədqiqatlarının nəticələri mütəxəssislər tərəfindən tanınmışdır. Neftçi-geoloqlar tərəfindən generasiyanın ekstremal sürətləri və miqyasları, sürətli çökmə şəraitində karbohidrogenlərin miqrasiyası və toplanması müəyyən edilmiş; hövzə modelləşdirilməsi, geokimyəvi və izotop tədqiqatlar aparılmış, karbohidrogenlərin generasiyası və saxlanmasının geniş diapazonu və dərinlik hədləri (16-18 km-ə qədər) aşkar edilmişdir; çökmənin ekstremal templərində lay və məsamə təzyiqləri və temperaturlarının formalaşma modelləri yaradılmışdır; sıxlaşmanın azaldığı regional zonalar və subvertikal geoloji cisimlər müəyyən edilmişdir. Geologiya və Geofizika İnstitutu Xəzər dənizinin qaz rejiminin öyrənilməsində geokimyəvi tədqiqatlarının əsaslarının və metodologiyasının hazırlanması, sualtı palçıq vulkanlarının və qaz hidratların kəşfində də lider mövqeyində olmuşdur. 2003-cü ildə Geologiya İnstitutunun tərkibinə daxil olmuş Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunda dünyada tanınmış elmi məktəb yaradılmışdır. Bu elmi məktəbə uzun illər SSRİ EA-nın müxbir üzvü, AMEA-nın həqiqi üzvü M.T.Abasov rəhbərlik etmişdir. Burada müxtəlif tipli neft və qaz yataqlarının işlənilməsinin nəzəri əsasları yaradılmışdır.

Azərbaycan ərazisində geniş yayılmış palçıq vulkanlarının neft və qazlılıqla əlaqəsinin öyrənilməsi yeni palçıq vulkanizmi məktəbinin yaranmasına səbəb olmuşdur. Bu məktəbin təşəkkül tapmasında Ə.Yaqubov, A.Əliyev, R.Rəhmanov, Y.Hacıyev, İ.Quliyev və başqalarının böyük əməyi vardır. İlk növbədə, palçıq vulkanizminin klassik tədqiqatları, o cümlədən güclü püskürmələrin ətraflı təsviri, vulkan məhsullarının - brekçiyanın, qazın, suyun və neftin həcmi qiymətləndirilmiş, vulkanların püskürmə kataloqları yaradılmış, onların morfogenetik təsnifatı işlənilmiş, püskürmə məhsullarının müfəssəl izotop-kimyəvi tədqiqatları aparılmışdır. Palçıq vulkanizminin neft və qaz yataqlarının formalaşma prosesləri ilə bağlılığı, palçıq vulkanizmi ilə seysmiklik arasında paragenetik əlaqələr aşkar edilmişdir. AMEA Geologiya və Geofizika və Almaniyanın Təbii Resurslar institutları birlikdə Azərbaycan palçıq vulkanlarında apardıqları monitorinq nəticəsində palçıq vulkanı qazlarının "greenhouse effect" mexanizmindəki rolu qiymətləndirilmişdir.

Geologiya və Geofizika İnstitutunun yaranma tarixindən bu günə kimi regional geologiya, geotektonika və neotektonika sahələrində olduqca əhəmiyyətli tədqiqatlar aparılmışdır (V.Y.Xain, Ə.Ş.Şıxəlibəyli, F.S.Əhmədbəyli, A.C.İsmayılzadə, M.Rüstəmovun və b.). Bu istiqamətdə müxtəlif illərdə tərtib edilmiş Azərbaycanın geoloji, geotektonik, geodinamik, paleotektonik, geomorfoloji, neotektonik, metallogenik və Qafqazın, Xəzər dənizinin və Avropanın beynəlxalq tektonik xəritələrini xüsusi qeyd etmək lazımdır. Regional geologiya sahəsində Azərbaycanın iri struktur elementlərinin öyrənilməsi, müasir tektonik proseslərin və neotektonik hərəkətlərin neft-qazlılıq və seysmikliklə qarşılıqlı əlaqələri problemləri üzrə əldə edilmiş nəticələr diqqətəlayiqdir. Hazırda regional geologiya üzrə yerin geodinamik təkamülünün müasir modellərinin işlənib hazırlanması, sekvens-stratiqrafiya, karbohidrogen rezervuarlarının arxitekturası, təbii və antropogen amillərin hidrosferə təsirlərinin sistemli təhlili istiqamətində tədqiqatlar davam etdirilir.

Filiz və qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi ənənəvi olaraq institutun əsas istiqaməti sayılır. Metallogenik və petroloji tədqiqatların aparılmasında institutun və bu qurumla müştərək elmi-tədqiqat işləri aparan Bakı Dövlət Universiteti alimlərinin rolu böyük olmuşdur.

Azərbaycan Uralı sayılan Daşkəsən filiz rayonunun və Kiçik Qafqazın kolçedan yataqlarının öyrənilməsi akademik M.Ə.Qaşqayın adı ilə bağlıdır. Kiçik Qafqazın şimal-şərq yamacının geologiyası və petroqrafiyasını öyrənən digər görkəmli tədqiqatçı akademik Ş.Ə.Əzizbəyov bu ərazinin metallik faydalı qazıntılara perspektivli olmasını göstərmişdir. Dağlıq Qarabağ ərazisi də tədqiqatçıların daimi diqqət mərkəzində olmuşdur. Struktur cəhətdən Kiçik Qafqazın Somxit-Qarabağ və Göyçə-Həkəri qırışıqlıq zonalarının bir hissəsini əhatə edən bu ərazidə polimetal, kükürd və mis kolçedanı, xüsusən son onilliklərdə qızıl və mis-porfir yataqlarının açılmasında Ə.D.Kərimovun, R.N.Abdullayevin, Ə.Ş.Şıxəlibəylinin, T.M.Məmmədovun, L.V.Zaytsevanın, R.X.Rəfibəylinin, Ə.Ə.Bayramovun və b. adlarını çəkmək olar.



*Geologiya və Geofizika İnstitutu ilə ABŞ-ın Massaçusets Texnologiyalar İnstitutu arasında memorandumun imzalanması*

1959-cu ildən etibarən Böyük Qafqazın Cənub yamacında unikal Filizçay və digər kolçedan-polimetal yataqlarının (Katex, Kasdağ, Mazımçay və b.) açılması sonradan bu ərazini qurğuşun və mis üçün çox perspektivli Balakən-Şəki kolçedan daşıyan filiz əyaləti olduğunu göstərmişdir (C.C.Mazanov, T.H.Hacıyev, M.P.Yolçiyev, İ.M.İbrahimov).

Qafqazın geologiyasının öyrənilməsinə əsas töhfə - Kiçik Qafqazın ofiolit yataqlarının kəşfi və tədqiqatı, regionun geodinamik inkişafında onların rolunun aşkarlanması, Saatlıda çox dərin geoloji-kəşfiyyat quyusunun və regionun geoloji-geofiziki və geokimyəvi tədqiqatlarının materialları əsasında Kür dağarası çökəkliyinin geoloji quruluşunun və inkişaf tarixinin tədqiqidir.

"Azərbaycanın filiz yataqlarında təbiətə ziyan vurmadan metalların çıxarılma texnologiyasının tədqiqi, işlənilməsi və tətbiqi" Tədbirlər Planı isə Nazirlər Kabinetinin 23 yanvar 2008-ci il tarixli 22 saylı sərəncamı ilə təsdiq olunub. Bu sənəd çərçivəsində professor Ç.Qaşqayın rəhbərliyi ilə Azərbaycanda ilk dəfə geotexnologiya elminin əsas prinsipləri üç qızıl yatağında sınaqdan keçirilmişdir.

Geologiya və Geofizika İnstitutunda yaranan görkəmli məktəblərdən biri də geofizika məktəbidir. Bu məktəbin yaranması Moskva şəhərinin universitet və institutlarında təhsil almış alimlərin Ş.Rəhimov (seysmologiya), R.Hacıyev (Yerin qravitasiya sahəsi), T.İsmayılzadə (Yer maqnetizmi), F.Quliyev (seysmologiya), T.A.Zolotovitskaya (radiometriya), Ş.Ə.Balakişibəyli (Yer süxurlarının yüksək təzyiq və temperatur şəraitindəki fiziki xassələri) və başqalarının adı ilə bağlıdır. İnstitutda seysmologiya və geodinamika, qravimetriya, radiometriya, maqnitometriya, geotermiya və süxurların fiziki xassələrinin öyrənilməsi istiqamətində bir çox mühüm nəticələr əldə edilmişdir.

Azərbaycanda seysmologiya elminin inkişafında V.N.Veber, N.V.Malinovski, E.İ.Byus, Y.Rizniçenko kimi alimlərin böyük rolu olmuşdur. Azərbaycan ərazisinin seysmikliyinin öyrənilməsinə dair V.P.Kuznetsov, F.T.Quliyev, R.A.Ağamirzəyev, Z.Z.Sultanova, Ə.B.Ağalarova, K.Ş.İslamov, İ.H.Kərimov, F.S.Əhmədbəyli, O.B.Babazadə, A.H.Həsənov, Q.C.Yetirmişli, B.M.Pənahi, R.İ.Həsənov, C.H.Cəfərov, S.T.Ağayeva, Q.R.Babayev, T.Y.Məmmədov və başqaları tərəfindən maraqlı tədqiqatlar aparılmışdır. Bu yaranmış məktəbin bazasında sonralar Respublika Seysmoloji Xidmət Mərkəzi təşəkkül tapmışdır.

Yerin qravitasiya sahəsinin məkan-zaman qanuna uyğunluqlarının, daxili quruluşunun və dinamik proseslərin öyrənilməsi professor R.M.Hacıyevin adı ilə bağlıdır. R.M.Hacıyevin bilavasitə rəhbərliyi ilə geodinamik poliqonlarda tədqiqatlara başlanılmış qravitasiya sahəsinin qabarmayan variasiyalarının qanunauyğunluqları müəyyənləşdirilmişdir. Sonrakı tədqiqatlarda Azərbaycan ərazisinin qravitasiya anomaliyalarının Hartley çevirməsi tətbiq edilərək ədədi interpretasiya metodu hazırlanmış, Azərbaycan ərazisinin 2D və 3D qravitasiya modeli tərtib edilərək və regional qravitasiya anomaliyaları geoloji interpretasiya edilmişdir. Rusiya alimləri ilə birlikdə tərtib edilən Xəzər regionunun Buqe qravitasiya anomaliya xəritəsi də böyük praktik əhəmiyyət daşıyır (M.İ.Lodjevski, F.Qədirov).

AMEA Geologiya və Geofizika İnstitutu Yer Fizikası seksiyası 1998-ci ildən başlayaraq Massaçusets Texnologiyalar İnstitutu (ABŞ) ilə birlikdə GPS monitorinq şəbəkəsinin yaradılması və Yer qabığının üfüqi hərəkətlərinin öyrənilməsi istiqamətində işlər aparır (F.Qədirov, R.Reilinger). Hazırda Azərbaycanda 46 GPS stansiyasından ibarət geodinamik şəbəkə təşkil edilmişdir. Qafqaz-Xəzər regionunun Yer qabığı müasir hərəkətlərinin GPS monitorinqi, müasir kinematikası, dərinlik quruluş modelləri, zəlzələ mexanizmlərinin və qırılmaların tədqiqi nəticəsində əldə edilən yeni məlumatlardan istifadə olunaraq Qafqaz plitəsinin mövcudluğu və müasir dövrdə saat əqrəbinin əksi istiqamətində dönməsi müəyyənləşdirilmiş və Azərbaycan ərazisinin plitə tektonikası konsepsiyasına əsaslanan yeni geodinamik modeli təklif edilmişdir.

Paleomaqnetizm sahəsində professor T.Ə.İsmayilzadənin apardığı paleomaqnit tədqiqatları və plitələrin rekonstruksiya modelləri böyük əhəmiyyət daşıyırdı və bununla da institutda Yer maqnetizminin öyrənilməsinin əsası qoyulmuşdur. Sonrakı tədqiqatlarla Azərbaycan ərazisi fanerozoyunun dayaq maqnitostratiqrafik şkalası qurulmuş, paleomaqnit məlumatların təhlilinə əsaslanaraq tabaşir dövründə Böyük və Kiçik Qafqaz ərazilərində müxtəlif geostrukturların dinamikasının kinematik parametrləri təyin edilmişdir (M.İsayeva, A.Xələfli).

Yer fizikası seksiyasının elmi fəaliyyət istiqamətlərində radioaktivlik, radioaktiv sahələrin geoloji quruluşla əlaqəsinin öyrənilməsi, neft-qazlı ərazilərin radiometriyası və neft-qaz yataqlarının birbaşa radiometrik üsulla axtarışı, dərin qırılmaların aktivliyinin qiymətləndirilməsi və ekoloji geologiya problemləri əsas yerlərdən birini tutur (T.Zolotovitskaya, Ç.Əliyev). Azərbaycanda tibbi geologiya problemlərinin öyrənilməsi məqsədilə Azərbaycan ərazisi üçün "Radonun həcmi aktivliyinin paylanma xəritəsi"nin tərtib edilməsi olduqca əhəmiyyət daşıyır.

"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" üzrə Geologiya və Geofizika İnstitutunda alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə dünyanın bir sıra ölkələrində tətbiq edilən layihələrdən biri olan istilik nasosları haqqında məlumat bazası yaradılmış və bunların Azərbaycanda tətbiqi perspektivləri araşdırılmışdır (A.Ş.Muxtarov). Eləcə də geotermal enerjinin tətbiqi zamanı istifadə olunması məqsədilə Azərbaycanın termal su mənbələri və onların geotermal enerji resursları haqqında məlumat bazası yaradılmışdır.

Geologiya və Geofizika İnstitutunun tərkibinə 24 elmi-tədqiqat şöbəsi, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması Müqaviləsi Təşkilatının (CTBTO) Azərbaycan Milli Məlumat Mərkəzi, Elmi cihaz və avadanlıqlardan kollektiv istifadə mərkəzi, H.Zərdabi adına Təbiət-tarixi muzeyi daxildir. 1945-ci ildə institutun tərkibinə H.Zərdabi adına Təbiət-tarixi muzeyi daxil edilmişdir. Bununla paleontoloji tədqiqatların sahəsi genişlənmiş, Binəqədi Qır gölü ilə yanaşı, Eldar düzənliyində, Mingəçevir rayonunda (Bozdağ, Duzdağ), Qarabağda Azıx və Tağlar mağaralarında, Abşeronda Pirəküşkül kəndi, Xırdalan qəsəbəsi ətrafında geoloji axtarış, elmi-tədqiqat işləri aparılmışdır. H.Zərdabi adına Təbiət-tarixi muzeyinin fəaliyyəti, kadrların hazırlanması, Binəqədi Dördüncü dövr onurğalılar faunasının öyrənilib təbliğ edilməsi və s. muzeyin ilk müdiri Rəhimbəy Cəfərovun adı ilə bağlıdır. R.Cəfərovun əsas elmi fəaliyyəti dünya şöhrətli Binəqədi Dördüncü dövr onurğalı heyvanların öyrənilməsinə həsr olunmuş və Binəqədi pleystosen fauna və flora qalıqlarının öyrənilməsi sahəsində dünya şöhrəti qazanmışdır (R.Cəfərov, N.Burçak-Abramoviç, F.Axundov, N.Ələkbərova və b.). Bu tədqiqatların nəticələri muzeyin 12 cildlik "Əsərlər"ində və bir neçə monoqrafiyada əksini tapmışdır.

AMEA-nın müxbir üzvü, mərhum professor D.V.Hacıyevin 1968-1970-ci illərdə Dağlıq Qarabağın cənubunda aşkar edilmiş qədim insan məskəninin öyrənilməsində və dünya miqyasına qaldırılmasında böyük rolu olmuşdur. O, Azıx mağarasının 5-ci təbəqəsində aşkar edilən daş alətlərin Orta Aşel mədəniyyətinə mənsub olduğunu, həmin təbəqədə tapılan ibtidai insanın alt çənəsi isə 20-22 yaşlı qadına məxsus oluğunu təsdiqləmişdi. Tapıntı Azərbaycan Dövlət Tarix Muzeyinin Qızıl fondunda saxlanılır. Bu dövr ərzində H.Zərdabi adına Təbiət-tarixi muzeyin yaranmasını əks etdirən "Azərbaycan onurğalı fosil fauna qalıqlarının icmalı" kitabı nəşr edilmişdir (T.Həsənov, 2002).

AMEA Geologiya və Geofizika İnstitutu 1990-cı ildən başlayan çətin dövrdə də öz elmi potensialını qorumağı bacarmışdır. İnstitutun direktoru, akademik A.Əlizadənin uzaqgörənliyi sayəsində beynəlxalq əlaqələrin qurulmasına böyük diqqət yetirilmiş, bir çox neft şirkətləri ilə müqavilələr imzalanmış və müxtəlif beynəlxalq qrant fondlarında iştiraka nail olunmuşdur. Beləliklə, institut aktiv şəkildə beynəlxalq inteqrasiya əlaqələrinə, müxtəlif proqram və layihələrin həyata keçirilməsinə qoşulmuşdur. Bu isə institutun cihaz və avadanlıq parkının yüksək dəqiqlikli analitik cihaz və ölçü alətləri ilə, Yerin fiziki sahələrini öyrənmək üçün yeni avtomatlaşdırılmış stansiyalarla təmin edilməsinə imkan yaratmışdır.

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra beynəlxalq elmi əlaqələrin əhəmiyyətli dərəcədə genişlənməsi və yeni texnologiyalardan istifadə olunma imkanın yaranması ilə fundamental tədqiqatlarda yeni dövr başlamış və institut dünya geoloji elminə sürətli inteqrasiya etmişdir. Bu proses 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə daha da intensiv şəkil almışdır. Dünyanın nəhəng neft şirkətləri ilə müştərək tədqiqatların aparılması, bu şirkətlərin elmi mərkəzlərinə səfərlər, beynəlxalq əməkdaşlığın xarakterini və inkişaf tempini köklü sürətdə dəyişdirdi. "British Petroleum-Statoil", "Exxon", "Shell", "Amoko", "Mobil". "Yunokal", "Texaco", "Philips", "Total", "Elf", "Aqip" kimi nəhəng beynəlxalq neft şirkətləri ilə uzunmüddətli birgə işləri beynəlxalq elmi məkana sıçrayış adlandırmaq olar. Bu müddət ərzində geologiya, paleontologiya və stratiqrafiya, neft və qazın geokimyası, geofizika və geodeziya üzrə 50-dən çox elmi layihə yerinə yetirilmişdir. Müştərək ekspedisiya işləri xarici elmi mərkəzlərdə və universitetlərdə aparılan sonrakı analitik və interpretasiya tədqiqatları bir tərəfdən qərb ölkələrində aparılan elmi tədqiqatlarda tətbiq edilən yeni metodlara, kompüter proqramlarına və standartlara tez adaptasiya olunmağa, digər tərəfdən isə milli elmi kadrların hazırlanmasını sürətləndirməyə imkan vermişdir. Məhz bu dövrdə elmi tədqiqatlarla yanaşı qərb cəmiyyətinin Azərbaycanın elmi, mədəniyyəti və təbii ehtiyatları ilə tanış edilməsi üzrə səy göstərildi. Bununla əlaqədar olaraq Geologiya və Geofizika İnstitutu və dünya şöhrətli "Britaniyanın təbiət tarixi muzeyi" ilə birgə BP şirkətinin sponsorluğu ilə təşkil olunmuş "Müqəddəs odlar ölkəsi" adlı sərginin əhəmiyyətini qiymətləndirməmək olmaz. Eksponatları Azərbaycan təbiəti, tarixi, mədəniyyəti və elmindən bəhs edən bu sərgiyə 2 il müddətində bütün dünyadan yüz minlərlə insan gəlmişdir. Qərb şirkətləri ilə aparılan birgə işlər qərb universitetləri ilə müştərək tədris proqramlarının inkişafına da təkan vermişdir.

1998-ci ildən etibarən Geologiya və Geofizika İnstitutu "Soros", "İntas", NATO", "CRDF", Ukrayna Elm Fondu UNTS, ABŞ Elm Fondu NSF və başqa tanınmış fondların qrant layihələrində iştirak etmişdir. İnstitutun beynəlxalq aləmdə fəaliyyəti eyni zamanda xarici elmi sessiyalar və konfranslarda, komissiya və komitələrdə iştirak, birgə geoloji və geofiziki ekspedisiyaların təşkili, görkəmli alimlərin bir çox dünya elm mərkəzlərində mühazirə aparmaqları, bir çox ölkələr üçün elmi kadrların hazırlanması və inkişaf etmiş ölkələrin elm mərkəzlərində kadrların təcrübə keçməsi şəklində də aparılmışdır.

Geologiya və Geofizika İnstitutunun gələcək inkişafı ən yeni fundamental və texnoloji nailiyyətlərin tətbiqinə əsaslanmışdır. İnstitutun eksperimental bazası yeni geofiziki aparatura, rəqəmli telemetrik seysmik stansiyalar, presezion qravimetrlər, yüksək dəqiqliyi ilə seçilən GPS və digər geodezik cihazlarla yeniləşmişdir. Tanınmış BSİ-in spectorate (Böyük Britaniya) analitik firması ilə bağlanmış müqavilə əsasında institutda qazların, neftlərin və onların emal məhsullarının analizi ilə məşğul olan müasir geokimyəvi laboratoriya fəaliyyət göstərir. Bundan əlavə, Geologiya və Geofizika İnstitutunda Azərbaycan Dövlət Neft Şirkəti müəssisələrinin birlikdə iştirakı ilə Azərbaycan Respublikası Dövlət Proqramı hesabına maliyyələşdirilən "Cənubi Xəzər çökəkliyinin Azərbaycan hissəsinin karbohidrogen potensialının və geodinamikasının öyrənilməsinə dair 2007-2014-cü illər üçün Tədbirlər Proqramı" çərçivəsində tədqiqatlar aparılmış və mühüm nəticələr əldə edilmişdir.

Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə AMEA Geologiya və Geofizika İnstitutunda müvafiq təşkilatların (AMEA, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi) iştirakı ilə Azərbaycanda əhalinin radon təhlükəsizliyi probleminin milli strategiyası hazırlanmış və yerinə yetirilmişdir.

Geologiya və Geofizika İnstitutunda aparılan elmi tədqiqatlar sahə institutları geoloqlarının apardıqları kəşfiyyat işlərinin nəzəri əsasını təşkil edir. İnstitut bir çox elmi-tədqiqat işlərini Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə aparmışdır. Geologiya və Geofizika İnstitutunun və sahə institutlarının birgə fəaliyyəti nəticəsində respublika ərazisində bir neçə iri neft və qaz, faydalı filiz və qeyri-filiz yataqları kəşf edilmişdir. Qeyd edim ki, AMEA Geologiya və Geofizika İnstitutu Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm fondu ilə sıx əməkdaşlıq edir.

Hazırda institutda 3 seksiyada 22 şöbə fəaliyyət göstərir və burada 415 əməkdaş çalışır. AMEA-nın Geologiya və Geofizika İnstitutunda 200 elmi işçi işləyir ki, onlardan 6 nəfəri AMEA-nın həqiqi üzvü, 4 nəfəri AMEA-nın müxbir üzvü, 31 nəfəri elmlər doktoru, 60 nəfəri fəlsəfə doktorudur. Bu gün Geologiya və Geofizika İnstitutu dünyanın aparıcı elmi mərkəzləri - Cənubi Karolina, Yuta, Vayominq, Merilend, Miçiqan universitetləri, Massaçusets Texnologiya İnstitutu (ABŞ), Birmingem və Aberdin universitetləri (Böyük Britaniya), Toronto Universiteti (Kanada), Yer Fizikası İnstitutu (REA), Geologiya İnstitutu (REA), Pyer və Mari Küri Universiteti və Neft İnstitutu (Fransa), Karlsrue və Hannover universitetləri (Almaniya), Sofiya Universiteti (Bolqarıstan), İstanbul və Ankara universitetləri (Türkiyə), Moskva Dövlət Universiteti (Rusiya), Paviya, Bikokka və Boloqna universitetləri (İtaliya), İtaliyanın Ətraf Mühitin Təhlili üzrə Metodologiya İnstitutu və b. ilə elmi əməkdaşlıq edir.

80 il ərzində AMEA-da geologiya və geofizika sahəsində dünya geologiya elmini zənginləşdirən bir sıra elmi və tətbiqi nəticələr əldə edilmişdir. Bu elmi nəticələrin bir çoxu monoqrafiya, xəritə və atlaslarda öz əksini tapmışdır. İnstitutun alimləri tərəfindən çoxcildli rus dilində "Геология Азербайджана", üçcildli azərbaycanca, "Azərbaycanın Geologiyası", Avropanın məşhur "Springer" nəşriyyatında çap edilən ikicildli "Geosciences of Azerbaijan", Moskva "Nedra" nəsriyyatında çap edilən ikicildli "Продуктивная толща Азербайджана" monoqrafiyaları, Azərbaycan, ingilis və rus dillərində nəşr edilmiş "Dünyanın palçıq vulkanları atlası", rus dilində "Elm" nəşriyyatında çap edilmiş "Атлас рудных месторождений Азербайджана", azərbaycanca və rusca "Azərbaycan mineralları" kimi əsərlər də elm aləminə təqdim edilmişdir.

1992-ci ildən (Azərbaycan Ali Attestasiya Komissiyasının yaranma dövrü) institutda iki "Neft və qaz yataqlarının geologiyası, geofizikası və geokimyası" və "Geotektonika, paleontologiya və stratiqrafiya" kimi doktorluq müdafiə şuraları fəaliyyət göstərmişdir. Hazırda Geologiya və Geofizika İnstitutunda "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları", "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı"və "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisasları üzrə doktorluq dissertasiya şuraları fəaliyyət göstərir.

Bu gün Geologiya və Geofizika İnstitutu bir çox fundamental və tətbiqi xarakterli tədqiqatları həyata keçirən iri beynəlxalq elmi mərkəzdir. Burada neft geologiyası, palçıq vulkanizmi, paleontologiya və stratiqrafiya, litologiya, geofizika, geotektonika və geodinamika, neft və qaz yataqlarının işlənilməsi sahəsində elmi məktəblər yaranmışdır. Elmi nailiyyətlərin və təcrübənin nəsildən-nəslə ötürülməsi nəticəsində geologiya və geofizika, neft yataqlarının istismarı və işlənilməsi sahəsində yaranmış fundamental və tətbiqi araşdırmalar aparan məktəblər qorunub saxlanılmışdır. İnstitut haqlı olaraq elmi ictimaiyyət tərəfindən qəbul edilmiş elmi məktəbləri və fundamental nəticələri ilə fəxr edir.

İnstitut alimləri geologiya elmi sahəsində kadr hazırlığını özünün ən əsas vəzifələrindən biri hesab edir. Belə ki, institutun alimləri Bakı Dövlət və Azərbaycan Neft və Sənaye universitetlərində mühazirələr aparırlar. Bu universitetlərlə inteqrasiya şəraitində institut daima gənc geoloqlarla kadr potensialını təmin etmiş və bu gənclərdən bir çoxu aspiranturanı bitirərək müstəqil elmi fəaliyyətə başlamışdır. Elm və təhsilin inteqrasiyasının vacibliyi şəraitində Bakı Dövlət Universiteti ilə bağlanmış müqavilə əsasında Geologiya İnstitutunda Seysmologiya və Yer təkinin fizikası kafedrasının filialı və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə bağlanmış müqaviləyə əsasən Neft və qazın geologiyası baza kafedrası fəaliyyət göstərir. İnstitut doktorantura və dissertantura yolu ilə həm respublikadakı və həm də MDB ölkələrindəki bir çox elmi müəssisələr üçün elmi kadr hazırlamışdır. İnstitut alimlərinin elmi nailiyyətləri dəfələrlə Lenin, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatlarına layiq görülmüşdür. Ə.N.Əlixanov dəniz neft yataqlarının kəşfi və istismarına görə Lenin mükafatına (1961), Ə.Ə.Yaqubov "Abşeron yarımadasının qərb hissəsinin palçıq vulkanları və onların neft-qazlılıqla əlaqəsi" elmi işinə görə (1942), bir sıra dəniz neft yataqlarının kəşfi və istismarına görə (1951) SSRİ Dövlət mükafatına, Ə.Ə.Əlizadə yeni neft yataqlarının kəşfi və istismarına görə (1943), kiçikölçülü elektrik perferatorunun işlənilməsinə görə (1946) SSRİ Dövlət mükafatına, M.T.Abasov, Y.M.Kondruşkin, F.Q.Orucəliyev, Ç.Ə.Sultanov Azərbaycan SSR-in qaz-kondensat yataqlarının qiymətləndirilməsi və işlənilməsinin layihələndirilməsinin elmi metodlarının yaradılması və tətbiqinə görə (1982) Azərbaycanın Dövlət mükafatına, Ş.F.Mehdiyev, Z.Ə.Bünyatzadə, F.H.Dadaşov Azərbaycan SSR-in neft-qaz və perspektiv struktur yataqlarının xəritəsinə görə (1988) Azərbaycanın Dövlət mükafatına, A.Əlizadə, M.M.Əliyev, Q.Ə.Əliyev, Xəlil Əliyulla, Ə.H.Xəlilov, R.H.Məmmədzadə Mezozoyun palentologiyası və stratiqrafiyası üzrə aparılan işlərə görə (1991) Azərbaycanın Dövlət mükafatına layiq görülmüşlər.

AMEA Geologiya və Geofizika İnstitutu alimlərinin müstəqillik dövründə qazandıqları elmi nailiyyətlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. İnstitutun əməkdaşları İ.S.Quliyev, F.H.Dadaşov, Ə.Ə.Feyzullayev, A.A.Əliyev, E.H-M.Əliyeva 2010-cu ildə Cənubi Xəzər hövzəsinin palçıq vulkanizmi və neftqazlılığının öyrənilməsi üzrə silsilə işlərinə görə müstəqil Azərbaycan Respublikasının ilk Dövlət Mükafatı Laureatı adına, institutun əməkdaşı, yer elmləri üzrə fəlsəfə doktoru Rafiq Səfərov isə elm sahəsində gənclər üçün ilk Prezident mükafatına layiq görülmüşlər. İnstitutun bir çox əməkdaşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Prezident təqaüdünə və fəxri adlara layiq görülmüş, orden və medallarla təltif edilmişlər.

Geologiya və Geofizika İnstitutunun gələcəkdə qarşısında duran əsas vəzifə dünya geologiya elminə inteqrasiyanı gücləndirmək və regionda geologiya elmindəki qabaqcıl mövqeyini qorumaqdan ibarətdir. İnstitut əməkdaşları gələcəkdə də elmi tədqiqatlarda yeni geofiziki üsullar və müasir texnologiyalar tətbiq edərək yeni neft-qaz yataqlarının və faydalı qazıntıların axtarışı, kosmik texnologiyalar bazasında geoloji təhlükəli proseslərin öyrənilməsi ilə Azərbaycanın sosial-iqtisadi inkişafına həmişəki kimi öz töhfəsini verəcəkdir.

**Fəxrəddin QƏDİROV,**
**AMEA Yer Elmləri Bölməsinin**
**akademik-katibi, akademik.**

*Yasamal rayonu*

# “Ölkəmizi tanıyaq” tur-aksiyası gənclərin xatirəsindən silinməyəcək

**Prezident İlham Əliyevin göstərişi ilə artıq dördüncü ildir ki, respublikamızda “Ölkəmizi tanıyaq” tur-aksiyası keçirilir. Ötən müddətdə Bakının Yasamal rayonunun ümumtəhsil məktəblərində şagirdlər minbir sərvətli, loğman təbiətli Azərbaycanın ayrı-ayrı rayonlarına coşqu ilə səfərə çıxmış, keçirilən aksiyalarda fəal iştirak etmiş, maraqlı keçən ekskursiyalar onların bilik dairəsini zənginləşdirmiş, səyahətə çıxdıqları yerlərin tarixini və coğrafiyasını mükəmməl öyrənmişlər.**



Bu günlərdə rayonun Heydər Əliyev adına muzeyində “Ölkəmizi tanıyaq” növbəti tur-aksiyasına həsr olunmuş toplantı keçirildi. Toplantıda məktəb direktorları, şagirdlər, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Yığıncaq başlamazdan öncə icra hakimiyyətinin foyesində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi, daha sonra məktəblilər tərəfindən ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin büstü önünə gül dəstələri düzüldü.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək vurğuladı ki, XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı üzləşdiyi çətinlikləri Heydər Əliyevin rəhbərliyi altında cəsarətlə aradan qaldırdı, müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirdi. Belə ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ulu öndərin Azərbaycanda rəhbərliyə qayıdışından sonra ölkədə ən başlıcası vətəndaş müharibəsinə, xaos və anarxiya mühitinə son qoyuldu, siyasi sabitlik formalaşdı, qanunçuluğun və hüquqi qaydaların bərpası istiqamətində kompleks tədbirlər həyata keçirildi, hərtərəfli hüquqi, siyasi və iqtisadi islahatlara başlandı.

Bütün bunlara görədir ki, Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qeyd edir.

Bəli, bu gün müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında özünəməxsus inkişaf yolu ilə gedir. Bütün sahələrdə olduğu kimi, gənc nəslin formalaşmasında da təqdirəlayiq irəliləyiş müşahidə olunur, məktəblilərə zəngin bilik verilməsinə maksimum səy göstərirlər.

Biz qürur hissi keçiririk ki, Yasamal rayonunun məktəbliləri “Ölkəmizi tanıyaq” tur-aksiyalarında fəal iştirak edir, rayonlarda olarkən tarixi yerlərə səfər edir, atlas geyimli dağlar, şərbət bulaqlar, qıjıltı ilə axan kənd çayları, yalçın qayalar, flora və fauna onların hər birində xoş ovqat yaradır. Rayon məktəbliləri tur-aksiyalarında müxtəlif yarışmalarda həvəslə iştirak edir və birincilik qazanırlar.

Əziz Əzizov əminliklə bildirdi ki, builki tur-aksiyaları Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə bir dövrə təsadüf edir. Ümid edirik ki, bu gün “Ölkəmizi tanıyaq” tur-aksiyası ilə bağlı bölgələrə rahat avtobuslarla yola düşən məktəblilər ekskursiyalara həvəslə qoşulacaq, öz bacarıq və fitri istedadları ilə fərqləncəklər.

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, rayon gənclər təşkilatının sədri İlham Səfərov, 20 Yanvar əlili Vidadi Kərimovun həyat yoldaşı Gülnarə Kərimova və Qarabağ müharibəsi, Əlilləri və Şəhid Ailələri İctimai Birliyi Yasamal rayon təşkilatının sədri Bəhram Şeydayev çıxış etdilər. Tədbirdə incəsənət gimnaziyasının şagirdləri, 21 saylı uşaq musiqi məktəbinin, 4 saylı uşaq gənclər inkişaf mərkəzinin kollektivi maraqlı proqramla çıxış etdilər.

Məktəblilər musiqi sədaları altında rayon ictimaiyyəti nümayəndələrinin xeyir-duası və böyük coşqu ilə Gəncə şəhərinə yola düşdülər.

**Qədir ASLAN,**
**“Respublika”.**

# “Ölkəmizi tanıyaq” layihəsi gənclərin vətənpərvərlik ruhunda böyümələrinə xidmət göstərir



**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi altında keçirilən növbəti maarifləndirici tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala bölgəsinə səyahət edəcək qubadlılı məktəblilərlə Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon Təhsil şöbəsinin binasında görüş olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, idarə, müəssisə və təşkilatların rəhbərləri, məktəb direktorları, valideynlər, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Malik İsaqov görüşdə çıxış edərək bildirib ki, şagirdlər tur-aksiyada vaxtlarını səmərəli keçirməklə yanaşı, həm də ölkəmizin rayonları, Azərbaycanın qədim tarixi-memarlıq abidələri, muzey və mərkəzləri ilə daha yaxından tanış olacaq, qərb rayonlarının görməli yerlərini gəzəcəklər. Qeyd olunub ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən “Ölkəmizi tanıyaq” layihəsi gənclərin vətənpərvərlik ruhunda böyümələrinə, dünyagörüşlərinin artmasına xidmət göstərir.

Çardaxlı kənd tam orta məktəbin direktoru Çingiz Salmanov, Mahmudlu kənd tam orta məktəbin direktoru Mahir Sarıyev və digərləri uşaqlara göstərilən dövlət qayğısından, gənc nəslin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən söz açaraq, təşkil edilən bu aksiyanın məktəblilər üçün tariximizi, mədəniyyətimizi öyrənmək üçün gözəl bir fürsət olduğunu və ölkəmizdə dövlətinə, xalqına, milli-mənəvi dəyərlərinə bağlı savadlı, vətənpərvər nəslin yetişdiyini qeyd ediblər.

Çıxış edən valideynlər və məktəblilər gənc nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsi, onların tərbiyəli, savadlı və vətənpərvər böyüməsi istiqamətində görülən işlərə, həmçinin şagirdlərin dünyagörüşünün yüksəlməsində mühüm əhəmiyyət kəsb edən maarifləndirici tur-aksiyaların təşkilinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Qubadlı rayonunun məktəblərindən olan fəal və istedadlı 20 şagird, 1 qrup rəhbəri və 1 həkim noyabrın 14-də səhər saatlarında avtobusla Qəbələ-Şəki-Zaqatala bölgəsinə ekskursiyaya yola düşüblər.

**AZƏRTAC**

# “Veysəloğlu Tələbə Təqaüd Proqramı”nı həyata keçirir



“Veysəloğlu Akademiya”da Şirkətlər Qrupunun əməkdaşlarının ali təhsil müəssisələrinə yüksək balla qəbul olaraq tələbə adını qazanan övladları ilə şirkət rəhbərliyi arasında növbəti görüş keçirilib. Görüşdə şirkət rəhbərliyi yüksək bal toplayıb ölkənin və xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrə uğurlar arzulayaraq, onlara gələcəkdə daha da yüksək nailiyyətlər əldə etməyi, savadlı kadrlar kimi yetişməyi, dövlətə və millətə layiqli vətəndaş olmağı arzulayıb.

Qeyd edək ki, “Veysəloğlu” şirkətinin 37 nəfər əməkdaşının övladı 2018-2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul imtahanlarından uğurla keçərək ölkəmizin və xarici ölkələrin müxtəlif ali məktəblərinə qəbul olublar. Onlar əldə etdikləri yüksək nəticəyə görə “Veysəloğlu Tələbə Təqaüd Proqramı”nın (VTTP) iştirakçısı olmağa haqq qazanıb. Belə ki, şirkət əməkdaşlarının ali məktəblərə qəbul imtahanında 600 baldan yuxarı nəticə göstərən övladları ilə bərabər, 500-600 bal arası nəticə göstərən övladlarına da aylıq təqaüd ödəniləcəkdir. Bundan başqa, 300-500 bal arası nəticə göstərənlərə isə birdəfəlik mükafatlar verilib.

Xatırladaq ki, “Veysəloğlu” Şirkətlər Qrupu 2012-ci ildən etibarən “Veysəloğlu Tələbə Təqaüd Proqramı”nı həyata keçirməkdədir. Təqaüd proqramına əsasən ümumilikdə 100-ə yaxın şirkət əməkdaşının ölkə daxilində və xaricdə ali təhsil müəssisələrinə qəbul olmuş övladlarına təhsilə dəstək məqsədilə aylıq və birdəfəlik təqaüdlər ödənilir.

**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

---

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın balansında olan nəqliyyat vasitlərinin cari ildə hissələrin yenisi ilə əvəz olunması və ya təmiri, sürtkü materiallarının dəyişdirilməsi xidmətlərinin kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19 noyabr 2018-ci il saat 17:00 tarixədək Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanında qəbul olunur.

Əlaqəli şəxs: Tender Komissiyası.

---

## “Bakı Metropoliteni” QSC

## KOTİROVKA SORĞUSU ELAN EDİR

“Bakı Metropoliteni” QSC xətlərinin konseptual inkişaf sxeminə görə, Bənövşəyi xəttin şərti adı “B5” stansiyası və ona bitişik ərazilərin 1:500 miqyasda kompleks topoqrafik planalması işlərinin satınalınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.11.2018-ci il saat 18.00 tarixinədək qəbul olunur.

Təkliflər 21.11.2018-ci il tarixində saat 16:00-da açılacaqdır.

**Ünvan:** *Bakı ş., M.Rəfili 16, tel.: (012) 490-00-91*

**Əlaqələndirici şəxs:** *İlqar Qasımov.*

---

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu aparatının balansında olan xidməti minik avtomobillərinə texniki-təmir xidmətlərinin göstərilməsinin satınalması üzrə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Təkliflər 22 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, H.Zərdabi prospekti 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təqdim olunmalıdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu:** *012-530-29-03*

**Tender Komissiyası.**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Memarlıq və İnşaat Universiteti

*aşağıdakı vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

| | | |
|---|---|---|
| 1. | Tikinti-iqtisad fakültəsi | dekan - 1 yer |
| 2. | Memarlığın əsasları | assistent - 1 yer |
| 3. | Təsviri incəsənət | professor 0,5 ştat - 1 yer |
| 4. | Ali riyaziyyat | professor 0,5 ştat - 1 yer |
| 5. | Ekologiya | professor 0,5 ştat - 1 yer |
| 6. | Nəqliyyat tikintisi və yol hərəkətinin təşkili | dosent - 1 yer |
| 7. | Xidmət sahələrinin iqtisadiyyatı və menecment | baş müəllim - 1 yer |
| 8. | Əcnəbi dillər | baş müəllim - 4 yer |
| 9. | İnformasiya texnologiyaları və sistemləri | professor 0,5 ştat - 1 yer<br>dosent - 1 yer<br>baş müəllim - 1 yer |
| 10. | Azərbaycan dili və pedaqogika | kafedra müdiri - 1 yer<br>baş müəllim - 2 yer<br>baş müəllim 0,5 ştat - 1 yer |

Müsabiqədə iştirak etmək üçün sənədlər mövcud Əsasnaməyə uyğun olaraq, bu elan dərc olunduğu gündən 1 ay müddətinə qəbul edilir.

**Ünvan:** *AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11, AzMİU.*

**Rektorluq.**

---

## BİLDİRİŞ

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən yanacaqdoldurma xidmətinin texniki dəstəyi üçün 2 ədəd partlayışa davamlı elektrik mühərrikli nasos aqreqatlarının satınalınması məqsədilə 28 sentyabr 2018-ci il tarixində “Respublika” qəzetində və dövlət satınalmalarının rəsmi internet saytında dərc edilən 1 lotdan ibarət açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilir.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

**“Respublika” qəzetinin 26-27 sentyabr və 6 oktyabr 2018-ci il tarixli saylarında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin dərc olunmuş tender elanının müddətinin artırılması barədə**

Tender prosedurundakı zərflərin açılışı 27 noyabr 2018-ci ildə saat 10:00-da Dövlət Fitosanitar Xidmətinin akt zalında keçiriləcəkdir, tender təklifi və bank təminatı isə möhürlənmiş iki qat zərfdə 26 noyabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov 7a ünvanına təqdim olunmalıdır.

**Tender Komissiyası.**

---

## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

## KOTİROVKALAR SORĞUSU ELAN EDİR

**1.** Yeməkxana üçün maşın və avadanlıqlarının alışı

**2.** Yeməkxana mal-materiallarının alışı.

Təkliflər 26 noyabr 2018-ci il saat 12.00-dək qəbul olunur.

Zərflərin açılışı 27 noyabr 2018-ci il saat 15.00-da həyata keçiriləcək.

**Ünvan: Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi-8.**

**(Əlaqələndirici şəxs: Əsgərov Qara, telefon: 0125124108**

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Fövqəladə Hallar Nazirliyinin Akademiyasının 30 sentyabr 2018-ci il tarixində elan edilmiş

**1.** Cari təmir üçün malların alışı.

**2.** 10 illik yubiley ilə əlaqadar suvenirlərin hazırlanması, tərtibat işlərinin görülməsi iş və xidmətlərinin satınalınması

Kotirovka sorğusu üzrə sənədlərin qəbulu 20 noyabr 2018-ci il saat 12:00-a qədər uzadılır. Zərflərin açılışı 21 noyabr 2018-ci il saat 16:00-da həyata keçiriləcək.

**Ünvan:** *Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi-8*

Tender Komissiyası. telefon: 0125124108.

---

DT və XK-nın Şabran rayon şöbəsi tərəfindən Leyti kənd sakini Abdulov Ağası Nəsbulla oğlunun adına verilmiş JN-004 (kod — 30404048) saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Bakı Telefon Rabitəsi İstehsalat Birliyi Yasamal Telefon Qovşağının Kadrlar şöbəsinə məxsus 1 (bir) ədəd dairəvi möhür itdiyi üçün etibarsız sayılır.

AzMİU tərəfindən Məmmədov Fuad Osman oğluna verilmiş 18/800101 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU tərəfindən Məmmədova Şəbnəm Binnət qızına verilmiş 18/030326 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Bəkirov Kazım Taleh oğluna verilmiş 03/2323 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 23 yanvar 1998-ci il tarixli 1 nömrəli qərarı ilə Bürcəli kənd sakini Məmmədov Söhbət Veysəl oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0095; KOD 80203038) itdiyi üçün etibarsız sayılır.

Xaçmaz şəhərində yaşamış mərhum Əliyev Məmmədəli Məmməd oğlunun adına verilmiş 2974 reyestr nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayon Nərəcan kədində yaşamış mərhum Eyyubova Yasəmən Abdulla qızının adına verilmiş həyətyanı sahənin JN-089F, Kod: 30217018 olan şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Bakı Dövlət Universitetinin fizika fakültəsinin əməkdaşları nəzəri fizika kafedrasının dosenti Məcid Qocayevə, atası**

**ŞƏRAFƏDDİN QOCAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Universitetinin fizika fakültəsinin nəzəri fizika kafedrasının kollektivi nəzəri fizika kafedrasının dosenti Məcid Qocayevə, atası**

**ŞƏRAFƏDDİN QOCAYEVİN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**İlyas İsmayılov, Oktay Qərəhməzli, Bəhrəm Feyzullayev, Nizami Əliyev, Ənvər Qafarov iş yoldaşları və dostları**

**CAHANGİR ƏMİR oğlu NƏSİROVUN**

**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**Milli Məclisin eksperti Əmirxan Babaşov ailə üzvləri ilə birlikdə elimizin görkəmli alimi filologiya elmləri doktoru, professor**

**ŞƏMİSTAN ABDI oğlu MİKAYILOVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Azərbaycan Texniki Universitetinin Avtomatika və kompüter texnikası fakültəsi və Kompüter sistemləri və şəbəkələri kafedrasının əməkdaşları həmin kafedranın müdiri, professor**

**VİDADİ HƏSƏN oğlu MUSAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Texniki Universitetinin Ümumi və tətbiqi riyaziyyat kafedrasının əməkdaşları universitetin professoru**

**VİDADİ MUSAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks 0240**
**Tiraj 4292**
**Sifariş 023**
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Müşfiq MİRZƏ**

● **Çapa imzalanmışdır**
**14.11.2018**